Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

28 MAY 2019-cu il

№ 94 (3992)

Qiyməti 50 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# TRAMPIN DÜZ BİR İL ƏVVƏLKİ QARABAĞ BƏYANATI DOĞRULMADI - «YAXIN AYLARDA İRƏLİLƏYİŞ...»

səh. 4

Ermənistanla uydurma "DQR" üz-üzə - TŞ katibinin uğursuz Vaşinqton səfərindən sonra Rusiya TŞ rəhbəri ilə görüş xəbərinin də yalanı çıxdı...

səh. 9

Dünya enerji bazarında qiymət tərəddüdləri Azərbaycana təsir etmir...

səh. 10

Bir erməni üstündə erməniçilik oyunu "Arsenal"ın imicinə zərbə vurdu...

səh. 8

Ermənistanda daxili ziddiyyətlər silahlı qarşıdurma mərhələsinə keçir

səh. 7

Paşinyanın səfirlərə açdığı böyük dərdi - Ermənistanda xarici investisiya əməlli-başlı dərdə çevrilib...

səh. 5

Şəhid zabit ailəsi Ayna Hacıyevanı Bakıxanovda yaşadığı mənzildən bayıra atmaq istəyənlər kimlərdir?

səh. 15

Enerji içkilərinin müəyyən uşaq yaşları üçün məhdudlaşdırılması gündəmdə...

səh. 15



səh. 3

## «Torpaqlarımızın işğal altına düşməsi AXC-Müsavat rejiminin acı mirasıdır»

*Prezident Azərbaycana ilk dəfə gələn xarici qonaqların nəyə təəccüb etdiklərini açıqladı*



Ermənilər Trampın İlham Əliyevə təbrik məktubunu ərazi bütövlüyünə zidd məzmunlu sənədə çevirə bilmədi...

səh. 8

Çin-Ermənistan yaxınlaşması - Ermənistanın iqtisadi əhəmiyyəti, Rusiyanın forpostu, ya Türkiyə amili...

səh. 6



İnkvizisiya dövrü xristian Avropanın dəhşətli işgəncə alətləri Bakıda - o dövrün papaları nələr törədib...

səh. 12-13

səh. 5

Gürcüstan - Azərbaycan sərhəd məsələsində gürcü siyasilər sakitləşib, keşişlər ayağa qaldırılır...



səh. 6

"Saakyanın başını əzərik" - Ermənistan - qondarma "DQR" münasibətləri düşmənçilik həddinə çatdı...



səh. 11

Polkovnik-leytenant formasından niyə imtina etdi...



səh. 14

Asiya İnkişaf Bankının manatla istiqraz buraxmasının tək mənası - Azərbaycanda maliyyə sabitliyi dönməzdir...



səh. 14

Azərbaycanın şərab ixracı niyə bu qədər azalıb...



## Prezident İlham Əliyev Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

**Mayın 27-də Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.**

Dövlət başçısı abidənin önünə əklil qoyub.

Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

## Vladimir Putin Prezident İlham Əliyevi təbrik edib

**Rusiya Prezidenti Vladimir Putin Prezident İlham Əliyevə təbrik məktubu göndərib.**

Təbrikdə deyilir: "Hörmətli İlham Heydər oğlu. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin ölkəniz sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynayır.

Rusiyada Azərbaycan ilə strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirirlər. Əminəm ki, biz bütün sahələrdə səmərəli ikitərəfli əlaqələri, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsində konstruktiv qarşılıqlı fəaliyyəti birgə səylərimizlə bundan sonra da uğurla inkişaf etdirəcəyik. Heç şübhəsiz ki, bu, dost xalqlarımızın əsas mənafelərinə uyğundur.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə firavanlıq və rifah diləyirəm".

## Britaniyanın Azərbaycandakı səfiri Bakıda Avropa Liqasının final oyununa hazırlıq işlərinə qiymət verdi...

**Bakıda Avropa Liqasının final oyununa ciddi hazırlıq işləri aparılıb. "Trend"in məlumatına görə, bunu Bakıda keçirilən mətbuat konfransında Böyük Britaniyanın Azərbaycandakı səfiri Kerol Krofts deyib.**



Səfir bildirib: "Əvvəllər də "Arsenal" və "Çelsi" klublarının azarkeşləri "Qarabağ" klubu ilə oyun zamanı Bakıda olublar. Onlar Azərbaycanla tanışdır və Bakının fantastik stadionunda artıq olublar".

Azərbaycan və Böyük Britaniya arasında münasibətlərdən danışan diplomat Tofiq Bəhramovdan özəl olaraq bəhs edib: "1966-cı ildə İngiltərədə keçirilən dunya çempionatında hakim olmuş və mükafat almış Azərbaycandan olan Tofiq Bəhramov bu gün də milli qəhrəman olaraq qəbul edilir. Onun adına Bakıda möhtəşəm stadion var".

Kerol Krofts daha sonra qeyd edib ki, bu həftə Böyük Britaniya səfirliyi, ölkə futbolu, xüsusən hər iki klubun azarkeşləri üçün həyəcanlıdır. O əlavə edib: "Rəsmi şəxslər, futbol assosiasiyaları və klubları ilə əməkdaşlıq şəraitində bu oyun üçün yüksək hazırlıq işləri görülüb".

Səfir, həmçinin, Azərbaycan xalqını 28 may - Respublika günü münasibətilə təbrik edib.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Avropa Liqasının final matçının siyasiləşdirilməsi barədə suala da cavab verib. O bildirib ki, bu iki klubun finala çıxması böyük nailiyyətdir: "Arsenal" və "Çelsi"də çox güclü oyunçular var və bütün söhbətlər onlar barədə olmalıdır".

K.Krofts qeyd edib ki, özünü Azərbaycanda hər zaman evindəki kimi hiss edib: "Mənim ailəm, dostlarım buraya gəliblər. Biz hər zaman insanların səmimi münasibətini görmüşük. İctimai nəqliyyatda gedərkən durub yer verirlər".

Daha sonra səfir bildirib ki, Azərbaycanın bu cür tədbirlərin keçirilməsində böyük təcrübəsi var. O əlavə edib ki, Bakıda möhtəşəm oyun keçəcək və hər kəs bundan zövq alacaq: "Biz "Arsenal" və "Çelsi" klubları, AFFA, eləcə də çoxlu sayda azarkeşlərin Bakıya gəlişini təmin etmək məqsədilə London polisi ilə sıx əməkdaşlıq edirik. Böyük Britaniyadan Bakıya dörd çarter reysi təşkil olunacaq.

**Daha dəqiq informasiya bir qədər sonra olacaq. Adətən bu cür oyunlar zamanı klublar özləri çarter reyslərinin təşkili ilə bağlı özəl şirkətlərlə danışıq aparır və bu reyslər kiçik aeroportlardan həyata keçirilir".**

Qeyd edək ki, mayın 29-da Bakıda UEFA Avropa Liqasının final oyunu keçiriləcək. Final oyununda "Çelsi" və "Arsenal" komandaları üz-üzə gələcək.

# Məmmədyarov "Kommersant"a Qarabağ probleminin əsas həll şərtindən danışdı...

**Ermənistan və Azərbaycan cəmiyyətlərinin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin çağırışlarına uyğun olaraq sülhə hazırlanması üçün ilk növbədə atılmalı addımlar məhz Ermənistanın təcavüz və işğalçılıq siyasətindən əl çəkməsi ilə əlaqədardır.**

"Trend"in məlumatına görə, bunu Rusiyada nüfuzlu KİV-dən biri sayılan "Kommersant" qəzetinə müsahi-



bəsində Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov deyib. Müsahibədə nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması kontekstində onun tarixçəsinə və nizamlanmasının beynəlxalq hüquqi çərçivəsinə bir daha nəzər salıb. Elmar Məmmədyarov hazırkı mərhələdə aparılan danışıqlar prosesindən Azərbaycan tərəfinin gözləntiləri barədə şərhlər verib.

## Xələf Xələfov "Keşikçidağ" haqda açıqlama verdi...

**"Keşikçidağ" Azərbaycan və Gürcüstan sərhəd xidmətləri tərəfindən qorunur və qorunmaqda davam etdirilir.**

Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycan Xarici işlər nazirinin müavini Xələf Xələfov deyib.

Onun sözlərinə görə, beynəlxalq hüquqa əsasən, SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikası və Gürcüstan avtomatik olaraq aralarında mövcud olan əvvəlki inzibati sərhədlərin varisi olub. Sonradan bu sərhədlər dövlət sərhədləri oldu və iki ölkənin sərhəd xidmətlərinin nəzarəti altına keçdi:"Gürcüstanlı zəvvarların "Keşikçidağ" qoruğunun ərazisində yerləşən mağaralara keçidləri, gürcü tərəfinin xahişinə və qarşılıqlı razılaşmaya əsasən, Azərbaycan sərhədçilərinin nəzarəti altında gerçəkləşirdi. Belə vəziyyət bu gün də davam edir. Öz ərazisində bəzi təsərrüfat və ya digər işlərin həyata ke-



çirilməsinə gəldikdə isə, bu hər bir tərəfin suveren hüququdur".

## "Arsenal"- "Çelsi"nin futbol oyununa 52 mindən çox bilet artıq satılıb

UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyunu ilə əlaqədar paytaxtın 4 nöqtəsində bilet satışı davam etdirilir. Bu barədə "Trend"ə açıqlamasında Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) İnformasiya və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Firuz Abdulla deyib.

Onun sözlərinə görə, satış nöqtələri şəhərin müxtəlif istiqamətlərində fəaliyyət göstərir: "Biletlər "28 Mall", "Port Baku" və "Gənclik Mall" ticarət mərkəzləri və Heydər Əliyev Sarayının kassalarında satılır. Artıq bu günə olan məlumata görə, final oyununa 52 mindən artıq bilet satılıb. Yəni 52 mindən artıq bilet sahibinə təqdim edilib. Onların arasında UEFA-nın sponsorları, əməkdaşlıq etdiyi təşkilatlar var ki, biletlər sahiblərinə çatdırılıb".

F.Abdulla bildirib ki, final oyununa nə qədər azarkeş və turistin bilet aldığı məlum deyil: "Bilet satışının ümumi statistikası aparılır. Amma nə qədər biletin turistə və yerli azarkeşlərə satıldığı məlum deyil".

Xatırladaq ki, mayın 29-da Bakı vaxtı ilə saat 23:00-da Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının final oyunu keçiriləcək. Finalda "Çelsi" ilə "Arsenal" komandaları qarşılaşacaq.

## Siyasi alətə çevrilib Bakıya gəlməmək futbolçu Mxitaryana baha oturdu - o, iti də itirir, ipi də...

**İngiltərənin "Arsenal" klubu erməni futbolçu Henrix Mxitaryanla yollarını ayırmaq niyyətindədir. Klub rəhbərliyi Mxitaryanın Premyer Liqadakı çıxışından narazıdır. O, artıq özünü doğrultmur, ona görə də çox vaxt ehtiyatda saxlanır. Bu səbəbdən onun başqa bir komandaya satılması planlaşdırılır.**




Qeyd edək ki, Mxitaryan, təhlükəsizliyini əsas gətirərək, UEFA Avropa Liqasının mayın 29-da Bakıda keçiriləcək final görüşündə iştirak etməkdən imtina edib. Halbuki, Azərbaycan onun təhlükəsizliyinə tam təminat verirdi.

Bunu elə Ermənistan Boks Federasiyasının mətbuat xidmətinin rəhbəri Ervand Hakobyan da təsdiqləyir. Hakobyan özünün "Facebook" səhifəsində yazır: "Azərbaycana və UEFA-ya ünvanlanan tənqidlər başadüşülən deyil. Henrix Mxitaryan Bakıda keçiriləcək final oyununda iştirak etməməklə bağlı qərarı özü qəbul edib. Halbuki Azərbaycan tərəfi onun təhlükəsizliyi üçün tam zəmanət verib".

Azərbaycanda indiyə qədər keçirilən idman və digər mühüm tədbirlərdə ermənilərin də iştirak etdiyi məlumdur. Ancaq onların təhlükəsizliyi ilə bağlı hər hansı bir problem yaşandığına dair bir dənə də olsun fakt yoxdur. Yəni Azərbaycan buraya gələn digərləri ilə yanaşı ermənilərin də təhlükəsizliyini tam təmin edib.

Ümumiyyətlə, mühüm tədbirlər ərəfəsində Azərbaycana qarşı bu cür təxribatçı şouların dəfələrlə şahidi olmuşuq. Elə bu dəfə də Mxitaryan təhlükəsizliyi məsələsilə Azərbaycanı istəməyən xarici qüvvələrin ölkəmizə qarşı çirkin kampaniya təşkil etmək məqsədi daşıdığı ortadadır.

Təbii ki, Mxitaryan özü də bu qalmaqalda maraqlı olub. Zəif nəticə göstərdiyi üçün satılacağına şübhəsi olmayan oyunçu özünü reklam edib, qiymətini artırmaq üçün bu qalmaqalın yaranmasında birbaşa maraqlı olub. Çünki özünü doğrultmayan futbolçu təxribatçı şoula bütün dünya mediasının gündəminə gəlib, potensialından artıq dərəcədə reklam edilib.

Elə Mxitaryanın milli kimliyilə şou düzəldən "Arsenal" da bunda maraqlı ola bilərdi. Məqsəd isə onu reklam edib daha baha qiymətə satmaqdı. Digər tərəfdən, "Arsenal"ın erməni futbolçu təxribatına qoşulması, istisna deyil ki, gələcək məğlubiyyətdən sığortalanmaq məqsədi daşıyıb.

***Baki-xeber.com***

## UEFA "Arsenal"ın Bakıda "köynək təxribatı"nın qarşısını aldı

**Avropa Futbol Assosiasiyalarının İttifaqı (UEFA) London "Arsenal"ının Bakıya gəlməkdən imtina etmiş erməni yarımmüdafiəçi Henrix Mxitaryanı dəstəkləmək məqsədilə Avropa Liqasının final matçı ərəfəsində planlaşdırdığı aksiyanın qarşısını alıb.**

"Sputnik Azərbaycan"-ın xəbərinə görə, bu barədə məlumatı Daily Mail yayıb.

"Kanonirlər"in nümayəndələri UEFA funksionerləri ilə görüş keçirərək final matçı ərəfəsində üzərində erməni yarımmüdafiəçinin adı olan futbol köynəyi geyinərək "Çelsi"yə qarşı məşq keçirməyin mümkün olub-olmadığını müzakirə ediblər. Lakin UEFA "Arsenal"a etiraz edib və bildirib ki, belə hərəkətlər assosiasiyanın reqlamentində ciddi şəkildə qadağandır.

Xatırladaq ki, UEFA və Azərbaycan tərəfinin təşkilatçılar qarşısında ən yüksək səviyyədə təhlükəsizliyə zəmanət verməsinə baxmayaraq, Mxitaryan Avropa Liqasının final matçında iştirakdan imtina edib.

Qeyd olunur ki, idmançıların məşqlər, matç və mükafatlandırma mərasimində geyinəcəkləri idman forması dəsti UEFA rəhbərliyi tərəfindən təsdiq edilir. Bununla yanaşı, Bakıda olan "Arsenal" əməkdaşları Mxitaryanla bağlı hər hansı bəyanat verməkdən çəkinirlər. Özünə qarşı yerli azarkeşların düşmən münasibətini formalaşdırmamaq üçün "kanonirlər" yekunda sözügedən aksiyanı keçirməkdən imtina ediblər.

Xatırladaq ki, Avropa Liqasının final matçı mayın 29-da saat 23:00-da Bakı Olimpiya Stadionunda keçiriləcək. Yarış İngiltərənin "Arsenal" və "Çelsi" komandaları arasında olacaq.

**Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Rəsmi qəbul Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlayıb və dövlət başçısı nitq söyləyərək deyib:**

# "Torpaqlarımızın işğal altına düşməsi AXC-Müsavat rejiminin acı mirasıdır"

*Prezident Azərbaycana ilk dəfə gələn xarici qonaqların nəyə təəccüb etdiklərini açıqladı*



"...Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. Bu, onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görmüşlər.

...1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi...

Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi.

...Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilmişdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı böyük dərəcədə yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır. Yüzdən çox şəhərcik salınmışdır və bu məsələ ilə bağlı bundan sonra da addımlar atılacaq. Azərbaycanda çox müasir infrastruktur yaradılmışdır və bu sahəyə çox böyük vəsait qoyulmuşdur.

...Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Belə olan halda hərbi potensialımızın gücləndirilməsi əsas prioritet məsələlərdən biri olmalıdır. Bu istiqamətdə çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, son illərdə hərbi hissələrimizin 80 faizi tamamilə yenidən qurulub. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hissələr də təmir ediləcəkdir. Azərbaycan bu gün çox güclü hərbi potensiala malikdir. Ancaq bundan sonra da bu istiqamətdə praktiki addımlar atılacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altına düşməsi AXC-Müsavat rejiminin acı mirasıdır. Biz çalışırıq bu məsələni həll edək. Həm hüquqi, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərdən Azərbaycan bu istiqamətdə böyük dərəcədə güclənib. Son illərdə mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr bizim ədalətli mövqeyimizi dəstəkləyir və münaqişənin həlli üçün bu, çox güclü hüquqi baza yaradıb. Qondarma "Dağlıq Qarabağ respublikası"nı heç bir ölkə tanımayıb, orada keçirilmiş qanunsuz referendumlara dünyanın aparıcı təşkilatlar və bir çox ölkələr tərəfindən sərt, mənfi reaksiya verilmişdir. Biz münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırırıq və bundan sonra da çatdırmalıyıq. Hesab edirəm ki, bu gün vəziyyət tamamilə fərqlidir. Çünki əgər əvvəlki dövrlərdə erməni lobbisi tərəfindən yayılan saxta, təhrif edilmiş məlumatlar daha çox yer tuturdusa, bu gün münaqişə ilə bağlı dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Hər kəs xəritəyə baxsa görər ki, Azərbaycan işğala məruz qalan ölkədir...

Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhranları darmadağın edirik və etməliyik. Çünki bu gün Azərbaycan reallıqları onu göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Mənim Prezident kimi təcrübəmdə bir çox hallarda xarici qonaqlarla təmaslar, Azərbaycana ilk dəfə gəlmiş qonaqlarla görüşlər əsnasında onlar tərəfindən bir təəccüb hissi duyulurdu: yəni, biz bilmirdik ki, Azərbaycan bu qədər inkişaf etmiş ölkədir. Biz bilmirdik ki, Azərbaycanda vəziyyət bu qədər yaxşıdır, şəhərlər bu qədər təmizdir, səliqəlidir, gözəldir. İctimai ovqat müsbətdir. Xalq iqtidarı dəstəkləyir. Yəni, nəyə görə bu təəccüb hissləri oyanırdı? Ona görə ki, bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılırdı... Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.

**Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər..."**

**Rəsmi qəbul Azərbaycan incəsənət ustalarının konsert proqramı ilə davam edib.**

# Trampın düz bir il əvvəlki Qarabağ bəyanatı doğrulmadı - "yaxın aylarda irəliləyiş..."

## Əli Orucov: "Bu daha çox Ermənistanın danışıqlarda uzun illərdir sərgilədiyi qeyri-konstruktiv mövqe ilə bağlıdır"

**Ötən il ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda qarşıdan gələn ayların Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacağını və bunun iki ölkə əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacağını qeyd etmişdi:**




*"ABŞ-ın Qarabağ münaqişəsinin həllində mövqeyi çox passivdir"*

"Azərbaycan və Birləşmiş Ştatlar mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edirlər. Təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində əməkdaşlığımızı, habelə uzunmüddətli ticarət əlaqələrimizi dəyərləndirirəm. Qarşıdan gələn aylar Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacaq, bu isə ABŞ-Azərbaycan əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacaq. ATƏT-in Minsk Qrupunun həmsədri kimi Birləşmiş Ştatlar bu münaqişənin sülh yolu ilə dayanıqlı həlli üçün Sizinlə əməkdaşlığı səmimiyyətlə arzulayır".

Birləşmiş Ştatların bu gün dünyada bütün parametrlərə görə super güc olması danılmaz reallıqdır. Dünyadakı geosiyasi proseslərə ABŞ-ın təsir imkanları daha böyükdür. Bütün bunları nəzərə alsaq, Trampın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səsləndirdiyi pozitiv yönümlü mesajlardan bir il vaxt keçsə də, münaqişənin həlli ilə bağlı heç bir irəliləyiş yoxdur. Baxmayaraq ki, Trampın sözügedən fikirləri Qarabağ münaqişəsinin həllinə böyük ümidlər yaratmışdı.

Maraqlıdır, ötən bir ildə deyilənlərin özünü doğrultmaması ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllində passiv mövqe tutması ilə bağlıdır, yoxsa Ermənistan hakimiyyətinin danışıqlarda sərgilədiyi qeyri-konstruktivliklə əlaqədardır?

Məsələyə münsibət bildirən AMİP funksioneri Əli Orucovun fikrincə, hər iki amilin münaqişənin həll olunmamasında rolu var: "Ancaq Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması daha çox Ermənistanın danışıqlarda uzun illərdir sərgilədiyi qeyri-konstruktiv mövqe ilə bağlıdır. Çünki reallıq ondan ibarətdir ki, Ermənistan işğal etdiyi torpaqları geri qaytarmaq istəmir. Ölkədə hakimiyyətə kim gəlsə də, bu yöndə proseslərə müsbət impuls vermir. Baxın, Paşinyan ötən bir ildə Dağlıq Qarabağ məsələsində daha radikal mövqe sərgiləyir. Separatçıların danışıqlarda iştirak etməsi təşəbbüsü ilə çıxış edir. Onun bu istəyinin Azərbaycan və həmsədrlər tərəfindən qəbul edilməməsinə baxmayaraq, Paşinyan bu mövqeyindən geri çəkilmək niyyətində deyil. Bu isə danışıqların müsbət nəticə verməyəcəyindən xəbər verir. Ancaq o da var ki, ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllində mövqeyi çox passivdir. Bu bir reallıqdır və bunu danmaq olmaz. ABŞ 2001-ci ilin yazında Corc Buşun prezidentliyi dövründə münaqişənin həlli ilə bağlı səy göstərdi. Bununla bağlı Azərbaycan və Ermənistan prezidentləri arasında Ki-Uestdə danışıqlar keçirildi. Ancaq nəticə əldə olunmadı. Ondan sonra ABŞ münaqişənin həlli ilə bağlı xüsusi səy göstərmədi, təşəbbüslə çıxış etmədi. Fikirləşdilər ki, onsuz da, pis-yaxşı, atəşkəs var, enerji və nəqliyyat layihələri reallaşır. Bununla yanaşı, Rusiyanın bu məsələdə əsas oyunçu olduğunu nəzərə alıb hansısa səy göstərmədilər. Həmçinin, Tramp ötən il münaqişənin həlli ilə bağlı müsbət mesajlar versə də, bunu reallaşdırmaqla bağlı səylərini artırmadı. Düzdür, Boltonun bölgəyə səfərləri oldu, amma daha sonra bu yöndə hansısa aktivlik müşahidə olunmadı. Bütün bu səbəblər üzündən münaqişənin həlli yubanır. Halbuki, rəsmi Vaşinqton, praktiki olaraq, bu istiqamətdə resurslarını işə salsa, müsbət nəticə əldə etmək olar".

*Vidadi ORDAHALLI*



# Gürcüstan - Azərbaycan sərhəd məsələsində gürcü siyasilər sakitləşib, keşişlər ayağa qaldırılır...

**Gürcüstanın Marneuli rayonunda bir qrup keşiş və dindar Azərbaycana gedən əsas magistral yolda aksiya keçiriblər. Aksiya iştirakçıları "Qırmızı körpü" sərhəd-keçid məntəqəsinə gedən yolu bir neçə dəqiqəlik bağlayıblar. Nəticədə yolda avtomobillərin hərəkətində məhdudiyyət yaranıb. Marneuli və Xucabi yeparxiyasının təşkil etdiyi aksiya "David Qareci (Keşikçi dağ Məbəd Kompleksi - red.) Gürcüstanındır" şüarı ilə keçirilib.**



*"Gürcülər keşişləri qabağa veriblərsə, bizim şeyx də gürcülərin vaxtilə talayıb apardıqları Gəncə qapısını tələb etməlidir"*

## *Tural İrfan: "Gürcüstan teokratik dövlət deyil ki, onun problemlərini keşişlər həll etsinlər"*

İştirakçılar bildiriblər ki, aksiya xəbərdarlıq xarakteri daşıyır. Onlar Gürcüstan hökumətini məbəd kompleksi ətrafında yaranmış problemi həll etməyə çağırıblar. Maraqlıdır ki, Gürcüstanın rəsmi dairələri prosesi nizama salmağa çalışdığı halda, bir qrup dindar vəziyyəti gərginləşdirməkdə davam edir.

Bir gün əvvəl isə xarici işlər naziri David Zalkaliani ictimaiyyəti sərhədin delimitasiyası üzrə işçi komissiyanın nəticələrini gözləməyə çağırmışdı: "İnformasiya (yolla bağlı) komissiya çərçivəsində yenidən yoxlanılır. Bir daha hamını emosional bəyanatlardan çəkinməyə çağırmaq istəyirəm. Əgər kimsə düşünürsə ki, komissiya bizim dövlət maraqlarımızı nəzərə almayaraq qərar qəbul edəcək, çox səhv edir. Biz dövlət maraqlarımızdan və bizi bağlayan strateji münasibətlərdən çıxış edəcəyik".

Gürcüstanın Baş naziri Mamuka Baxtadze də bəyanatla çıxış edib və xüsusi vurğulayıb ki, monastır problemi üzrə heç bir pərdəarxası saziş olmayacaq.

Azərbaycanla strateji və dostluq əlaqələrini xatırladaraq, Gürcüstan hökumətinin rəhbəri aqressiv ifadələrin müəlliflərini cəmiyyətin duyğuları ilə oynamamağa, populist və siyasi cəhətdən düzgün olmayan bəyanatlar verməkdən çəkinməyə çağırıb.

"Keşikçi dağ" ətrafında vəziyyət təxminən iki həftə əvvəl gərginləşib. O vaxt Gürcüstan tərəfinin bəzi nümayəndələri bildirdilər ki, Azərbaycan sərhədçiləri öz ərazilərində olan mağara kompleksinin dini obyektlərinə keçidi məhdudlaşdırıblar.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva həmin informasiyanı şərh edərkən bildirmişdi ki, rəsmi Bakı həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub: "Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası, beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq, qarşılıqlı əlaqələndirmə prosedurları əsasında mövcud ikitərəfli formatlar çərçivəsində həll olunur. Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub. Azərbaycan bu prosesi ən qısa müddət ərzində başa çatdırmağa hazırdır".

Qeyd edək ki, , Gürcüstan pravoslav kilsəsi də bəyanatla çıxış edərək, danışıqların mümkün mənfi nəticələrinə etinasızlıq göstərməməyə və monastır kompleksinin bir hissəsinə nəzarətin Bakıda qalması ilə barışmamağa çağırıb. Rəsmilərin sakit anlaşa bildiyi bu mövzuda gürcü keşişlərinin bu radikallığını necə anlamaq olar?

İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, gürcü dindarlarını prosesə qoşmaqda maraqlı olan qüvvələr var: "Sözügedən "Keşikçi dağ" məbədi ətrafındakı mübahisəyə görə gürcü keşişlər Borçalıdan Gəncəbasara gələn yolu bağlayaraq etiraz ediblər. Görünən odur ki, bu keşişləri Gürcüstanın məhz yeni rəhbərliyinin dövründə qızışdıranlar var. Çeçen-Azərbaycan süni münaqişəsində olduğu kimi, hesab edirəm ki, bu işdə də erməni barmağı var. Hər bir halda bu məsələ ilə Xarici İşlər Nazirliyimiz və keşişlər işə qarışdıqları üçün Qafqaz Müsəlmanları İdarəsi məşğul olmalıdır. "Keşikçi dağ" məbədi qədim alban abidəsidir. Orada hər kəsin ibadət etməsi azaddır. Əslində, orada dini ibadət sarıdan bir problem yoxdur. Məlum olduğu kimi, xalqımızın indiki dini xristian olmadığı üçün, orada ibadət üçün gedənlərimiz yox dərəcəsindədir. Ora ibadət üçün yalnız gürcülər gəlirlər. Yəni bu o deməkdir ki, orada dini ibadət problemi yoxdur. Məbədin kimə aid olub-olmamasının ibadət etmək üçün heç bir önəmi yoxdur. Ancaq keşişlərin buna rəğmən, qarşıdurma yaratma cəhdləri onu göstərir ki, onları qızışdırıb körükləyənlər var. Əgər problem ərazi üstündədirsə, ərazi məsələlərini dindarlar-keşişlər yox, siyasilər həll edir. Gürcüstan teokratik dövlət deyil ki, onun problemlərini keşişlər həll etsinlər. Burada süni münaqişə yaratmaq istəyənlərin haradan idarə olunduğu müəyyən edilməlidir. Uzun illərdir yada düşməyən bir iddianı qəfildən ortaya atıb alovlandırmaq heç də beşüç keşişin kilsə iddiasına bənzəmir. Hər bir halda, Gürcüstan hakimiyyəti ilə danışıqlar aparılmalı, məsələ dərinləşmədən həll edilməlidir. Gürcülər keşişləri qabağa veriblərsə, bizim şeyx də gürcülərin vaxtilə talayıb apardıqları Gəncə qapısını tələb etməlidir. Madam ki, onlar məsələni dindarların əli ilə qabardırlar, Qafqaz Müsəlmanları İdarəsi də Qafqaz müsəlmanlarını məsələyə cəlb etməlidir. Çünki mən əminəm ki, bu işi alovlandıran erməni barmağıdır. Məhz o barmağı tapıb sındırmaq lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın səfirlərə açdığı böyük dərdi - Ermənistanda xarici investisiya əməlli-başlı dərdə çevrilib...

**Ermənistanın Baş naziri Nikol Paşinyan bu ölkədə akkreditə olunmuş xarici ölkələrin diplomatik nümayəndələri ilə görüşüb. Görüş zamanı Paşinyan ötən il Ermənistan iqtisadiyyatının nailiyyətləri barədə xarici səfirlərə məlumat verib. O iddia edib ki, guya ötən il bir sıra iqtisadi uğurlar əldə olunub.**



*"Bu ölkədə risq dərəcəsi böyükdür"*

## *Rəsul Cahangirli: "Başlıca səbəb onunla bağlıdır ki, Ermənistan xarici sərmayədarlar üçün cəlbedici deyil"*

İqtisadi problemlər, həll yolları və nəticələr barədə danışan Paşinyan makroiqtisadi sabitliyin qorunmasının başlıca vəzifəsi olduğunu deyib. İddia edib ki, guya bu ilin birinci rübündə ölkədə ÜDM 7,1 faiz artıb. Paşinyan xarici diplomatları inandırmağa çalışıb ki, ölkədə kölgə iqtisadiyyatı azalıb.

Paşinyan deyib ki, onların ən böyük problemi xarici investisiya ilə bağlıdır. Belə məlum olub ki, xarici sərmayədarlar ölkəyə investisiya qoymaqda maraqlı deyillər: "Biz ölkəmizdə xarici investisiyalar üçün ən cəlbedici şərait yaratmaq üçün əlimizdən gələni edirik".

Eyni zamanda, o qeyd edib ki, müstəqil fəaliyyət göstərən məhkəmə sistemi olmadan, bu məsələ tam həll olunmayacaq. Çünki hər hansı bir investor onun investisiyalarının, əmlakının təminatına zəmanət istəyir: "Lakin belə bir zəmanət yalnız müstəqil məhkəmə sistemi tərəfindən verilə bilər".

Görünən odur ki, xarici sərmayədarlar Ermənistana investisiya qoymaq istəmirlər. Maraqlıdır, bunun səbəbi nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bir neçə səbəb üzündən xarici sərmayədarlar Ermənistana investisiya qoymaq istəmirlər: "Başlıca səbəb onunla bağlıdır ki, Ermənistan xarici sərmayədarlar üçün cəlbedici deyil. Nə iqtisadi resurslarına görə, nə də nəqliyyat əlaqələrinə görə bu ölkə əlverişli vəziyyətdə deyil. Fikirləşirlər ki, sərmayə qoysalar batacaq. Başqa bir tərəfdən ölkədə sabitlik yoxdur. Xarici investorlar bu amilə xüsusi önəm verirlər. Məsələ ondadır ki, "məxməri inqilab"dan ötən 1 ildə Paşinyan özünə çevik və peşəkar komanda qura, məhkəmə-hüquq sistemində zəruri islahatlar aparıb hakimiyyətini möhkəmlədə bilməyib. Bu, Ermənistanda mövcud olan reallıqdır. Hələ inqilab öz hədəflərinə çatmayıb və sistemli islahatlar ləngiyir. Paşinyanın "iqtisadi inqilab" haqda bəyanatı da elə bəyanat olaraq qalır. Praktiki olaraq bununla bağlı hansısa ciddi işlər görülməyib.

İqtisadiyyatda davam edən staqnasiya, səngiməyən kütləvi köç, və edilən böyük sərmayələrin ölkəyə gəlib çıxmaması, yoxsulluğun azalmaması xarici borcların artmasına səbəb olub. Eyni zamanda, idarəçiliklə bağlı problemlər xarici investorları çəkindirir. Görünən odur ki, risq etmək istəmirlər. Çünki bu ölkədə risq dərəcəsi böyükdür. Bu səbəbdən Ermənistana sərmayə qoymaq istəmirlər".

***Vidadi ORDAHALLI***

**Regiona səfər edən Çinin xarici işlər naziri Vanq Yi Ermənistanda bir sıra görüşlər keçirib. O, erməni həmkarı Zöhrab Mnatsakanyanla görüşüb. Tərəflər arasında bir sıra sənədlər imzalanıb.**

# Çin-Ermənistan yaxınlaşması - Ermənistanın iqtisadi əhəmiyyəti, Rusiyanın forpostu, ya Türkiyə amili...

***Məhəmməd Əsədullazadə:** "Çinin Türkiyəyə təsirləri və bununla bağlı Ermənistanda fəaliyyət planı ola bilər"*



*"Ermənistanın iqtisadiyyatı olmadığı üçün, bu kimi siyasi reveranslar..."*

İmzalanan sənədlərdən biri də Ermənistan və Çin arasında viza tələblərinin qarşılıqlı ləğv edilməsi ilə bağlı olub. Belə ki, bundan sonra Ermənistan və Çin vətəndaşları viza almadan bir-birinə səyahət edə biləcəklər. Belə ki, razılaşmaya görə, iki ölkə vətəndaşları səfər zamanı 180 gün vizasız qala bilərlər. Saziş iki ölkənin parlamentləri tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minəcək.

Son vaxtlar Çin və Ermənistan arasında müşahidə olunan yaxınlaşma maraq doğurur. Bu günlərdə Ermənistanın Baş naziri Nikol Paşinyan Çində işgüzar səfərdə oldu. Tərəflər arasında bir sıra sazişlər imzalandı. İndi də bu proses davam edir.

Maraqlıdır, Çin Ermənistana niyə belə maraq göstərir? Bu, Ermənistanın Çin üçün hansısa geosiyasi, iqtisadi əhəmiyyəti ilə bağlıdır? Ola bilərmi ki, Ermənistan Rusiyanın forpostu olduğuna görə onunla belə yaxınlaşma var? Ən nəhayət, sözügedən məsələdə uyğur türkləri ilə bağlı Çinlə Türkiyə arasında olan fikir ayrılığının rolu nə dərəcədədir? O mənada ki, Çin lazım gələndə Ermənistandan Türkiyəyə qarşı istifadə etsin.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bütün bunlara bir neçə rakursdan yanaşdı: "Ermənistanla Çin arasında viza rejiminin qaldırılması və yaxud bu ölkə ilə qarşılıqlı səfərlər işğalçı ölkənin inkişafı baxımından heç bir perspektiv vəd etmir. Çünki Ermənistan Rusiyanın həm siyasi, həm də iqtisadi nəzarətindədir. Bundan əlavə, Çinlə Rusiya arasında maraq toqquşması gedir. Rusiya öz forpostunu yeni dünya nizamına iddia edən Çinə güzəştə getməyəcək. Həmçinin, Ermənistanla Çin arasında iqtisadi əməkdaşlıq da mümkün deyil. Ermənistanın iqtisadiyyatı olmadığı üçün, bu kimi siyasi reveranslar, sadəcə, rəsmi Pekinin öz siyasi arealını genişləndirməsinə hesablanıb. Çinin Cənubi Qafqaza ciddi maraq dairəsi var. İlk növbədə bu ölkə Azərbaycanla sıx siyasi-iqtisadi əlaqələrə malikdir. Ona görə də Ermənistanın Çinlə sıx əməkdaşlığında yalnız burada rəsmi İrəvanı qonşularına qarşı istifadə etmək niyyəti var. Çinin Türkiyəyə təsirləri və bununla bağlı Ermənistanda fəaliyyət planı ola bilər.

Ancaq Türkiyə elə bir ölkədir ki, Çin gəlib onun qonşuluğunda təzyiq siyasəti yürütsə, bu fiaskoya uğraya bilər.

Türkiyənin hazırda Çinə təsir etmək üçün əlində çox güclü rıçaqları var. Hesab edirəm ki, Çinin Ermənistan üzərindən hər hansı planı rəsmi İrəvana qarşı Türkiyənin sərt addımlar atmasına gətirib çıxara bilər. Məsələn, bu, qanunsuz miqrantların Ermənistana göndərilməsinə səbəb olar. Çin "bir kəmər, bir yol" layihəsi çərçivəsində Ermənistanla yalnız imitasiya xarakterli əlaqələr qurur".

***Vidadi ORDAHALLI***

**Bu günlərdə İrəvanda keçirilən mitinqdə Ermənistanın eks-prezidenti Robert Köçəryanın tərəfdarları, o cümlədən, Dağlıq Qarabağın qondarma "prezidenti" hədələnib. Ermənistan KİV-inin verdiyi məlumata görə, İrəvanın Azadlıq meydanında Nikol Paşinyanın bir neçə min tərəfdarı toplanıb.**

# "Saakyanın başını əzərik" - Ermənistan - qondarma "DQR" münasibətləri düşmənçilik həddinə çatdı...

***Elşən Mustafayev:** "Onlarda parlamenti də güllələbaran edərək vəzifəli insanları öldürüblər, prezidentliyə namizədləri belə güllələyiblər"*



Onlar Paşinyanın məhkəmə sistemində islahatlara dair təşəbbüsünə dəstək veriblər. Mitinq İrəvanın mərkəzi küçələrində yürüşlə yekunlaşıb.

Aksiyanın təşkilatçılarından biri olan Civan Abramyan deyib ki, məhkəmə sistemində islahatlar korrupsioner məmurları yerində oturdacaq. Onun sözlərinə görə, hazırkı məhkəmə sistemi keçmiş rejimdən asılıdır və siyasi sifarişləri yerinə yetirir.

C.Abramyan çıxışında R.Köçəryana dəstək verdiyi üçün Dağlıq Qarabağın qondarma "prezidenti" Bako Saakyanın və digərlərinin "başını daşla əzmək" barədə danışıb. O deyib ki, insanları Köçəryanın tərəfdarlarının, B.Saakyan da daxil olmaqla, başını daşla əzməyə çağıra bilərlər.

Saakyanın "xüsusi işlər üzrə köməkçisi" Arşavir Qaramyan C.Abramyanın çıxışının videosunu sosial şəbəkədə paylaşaraq buna "hüquqi qiymət verilməsinə" çağırıb.

Məlumatlara görə, Köçəryanın əleyhdarlarının mitinqi zamanı para.tv internet kanalının jurnalisti bıçaqlanıb. Bu insidentin təfərrüatları məlum deyil.

Ermənistan polisi mayın 25-də İrəvandakı mitinqdə çıxışı zamanı Dağlıq Qarabağın qondarma "prezidenti" B.Saakyanın başını daşla əzməyə çağıran C.Abramyan barədə təhqiqat başladıb. Erməni KİV-i xəbər verir ki, Abramyan çıxışı ilə bağlı polisə aparılıb və ifadəsi alınıb. Artıq bu fakt sübut edirmi ki, Ermənistanda qondarma rejimlə İrəvan arasındakı ziddiyyətlər öz kulminasiyasına çatıb?

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev qəzetimizə bildirdi ki, bu ziddiyyət mövcud idi, ancaq Köçəryanın həbsdən azad edilməsindən sonra daha da dərinləşdi və açıq müstəviyə qədəm qoydu: "Bəllidir ki, eks-prezidentin həbsdən azad edilməsi barədə qərarla razılaşmayan Baş nazir N.Paşinyan hüquq-mühafizə orqanlarını qəti və radikal addımlar atmağa məcbur etmək istədi. Paşinyanın təzyiqləri altında Ermənistan Ali Məhkəmə Şurasının sədri Qagik Arutyunyan istefaya getdi. R.Köçəryan azad edildiyinə görə N.Paşinyan xalqı məhkəmələrin girişlərini tutmağa səsləmişdi. Bundan sonra tanınmamış "DQR" "generalitetinin" nümayəndələri və Ermənistan oliqarxları Paşinyanın vəzifəsindən devrilməsi məqsədilə sui-qəsd məsələsini müzakirə etdikləri haqda məlumat yayıldı. Ermənistanın rəsmi dairələri bunu təsdiq etdilər. Hətta vəziyyət o yerə çatdı ki, Paşinyan Dağlıq Qarabağ ərazisində xidmət edən oğlunu İrəvana köçürməli oldu. Ermənistanda keçirilən son mitinqdə səslənən şüarlardan da görünür ki, tərəflər arasında demokratik mübarizənin aparılacağından söhbət belə gedə bilməz. Göründüyü kimi, rəqiblər bir-birinin başını əzəcəyi, öldürəcəyi ilə hədələyirlər. Ermənistan üçün bu, xarakterik haldır. Çünki onlarda parlamenti də güllələbaran edərək vəzifəli insanları öldürüblər, prezidentliyə namizədləri belə güllələyiblər. Hazırda isə qondarma qurumla Ermənistanın yeni rəhbərliyi arasında bu vəziyyət yaşanır. Bu vəziyyətin gələcəyi barədə yalnız onu demək olar ki, vətəndaş müharibəsi qaçılmazdır. Bütün göstəricilər ona aparır. Yəqin ki, Paşinyana öz baş nazirlik dönəmini sona qədər başa vurmağa imkan verməyəcəklər".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanda daxili ziddiyyətlər silahlı qarşıdurma mərhələsinə keçir

**Ermənistanın eks-prezidenti Robert Köçəryanın azadlığa çıxmasından sonra bu ölkədə siyasi gərginlik artmaqda, daxili ziddiyyətlər getdikcə daha da kəskinləşməkdədir. Erməni mediasının yazdıqlarından belə bəlli olur ki, bu dəfə məsələnin narahatlıq doğuran tərəfi cəmiyyətdə kəskin qarşıdurma əhval-ruhiyyəsinin yaranması və bunun istənilən vaxt daxildə silahlı qarşıdurmaya çevrilə bilməsidir.**

Bütün bunlar ötən şənbə İrəvanda keçirilən mitinqdə özünü qabarıq şəkildə büruzə verdi.

Qeyd edək ki, həmin aksiya zamanı Robert Köçəryanın tərəfdarları, o cümlədən "Dağlıq Qarabağın prezidenti" hədələnib. Azadlıq meydanında toplanan Nikol Paşinyanın tərəfdarları hakimiyyətin məhkəmə sistemində islahatlara dair təşəbbüsünə dəstək veriblər. Aksiyanın təşkilatçılarından olan Civan Abramyan deyib ki, məhkəmə sistemində islahatlar korrupsioner məmurları yerində oturdacaq. Onun sözlərinə görə, hazırkı məhkəmə sistemi keçmiş rejimdən asılıdır və siyasi sifarişləri yerinə yetirir. Civan Abramyan çıxışında Robert Köçəryana dəstək verdiyi üçün "Dağlıq Qarabağın prezidenti" Bako Saakyanın və digərlərinin "başını daşla əzməyin" vacib olduğunu bildirib. O deyib ki, insanları Robert Köçəryanın tərəfdarlarının, Bako Saakyan da daxil olmaqla, başını daşla əzməyə çağıra bilərlər. Saakyanın "xüsusi işlər üzrə köməkçisi" Arşavir Qaramyan Civan Abramyanın çıxışının videosunu sosial şəbəkədə paylaşaraq buna "hüquqi qiymət verilməsinə" çağırıb. Baş verənlərdən sonra Ermənistan polisi Civan Abramyan barədə təhqiqat başladıb. Amma erməni mediası yazır ki, Paşinyanın tərəfdarı həbsə atılmayacaq, əvəzində, baş verənlər erməni cəmiyyətində daxili ziddiyyətlərin artıq təhlükəli qarşıdurma həddinə çatdığını üzə çıxarır.

Bununla yanaşı diqqət ona yönəldilir ki, Paşinyan tərəfdarlarının mitinqi həm də "Daşnaksütyun" Partiyasının son aksiyasına cavab olaraq keçirilib. "Daşnaksütyun" Partiyasını isə məhz Robert Köçəryanın hərəkətə gətirdiyi qeyd olunur. Beləliklə, artıq meydanlarda erməni cəmiyyətində yaranan qütbləşmə özünü qabarıq surətdə büruzə verir. Bu qütbəşmənin daha da dərinləşməsi, erməni cəmiyyətində kəskin parçalanmaya yol açması artıq qaçılmaz sayılır. Baş verənlərlə bağlı "1in.am" saytı isə yazır: "Paşinyanın tərəfdarları Erməni İnqilabi Federasiyası - "Daşnaksütyun" Partiyasının aksiyasına cavab olaraq mitinq keçirdilər, keçmiş hakimiyyətin ünvanına sərt ittihamlar səsləndirdilər. "Daşnaksütyun" Partiyası son 20 ildə, demək olar ilk dəfə idi ki, Azadlıq meydanında mitinq keçirərək, müstəqil şəkildə gündəliyi formalaşdırmağa cəhd edib. Müxtəlif hesablamalara görə, bu mitinqdə təxminən 2 min vətəndaş iştirak edib. Nikol Paşinyanın reytinqinin hələ yüksək olması və müxalifətçilik fəaliyyəti üçün çətinliklər yaratması kimi obyektiv şərait nəzərə alınarsa, sırf iştirak baxımından mitinqi baş tutmuş saymaq olar.

Digər tərəfdən, mitinq planında onun iştirakçılarının sayı və ya çıxışların məzmunu daha az əhəmiyyət kəsb edirdi. Çünki "Daşnaksütyun" Partiyası son günlər bu ənənəvi partiyanın cari mövqeləri haqqında ümumi təsəvvür yaradan bir neçə bəyanatla çıxış edib. Əlbəttə, Ermənistanın ən yeni tarixində "ciddi olun" çağırışları olub. Məsələn, 1997-ci ilin sonunda Levon Ter-Petrosyan Qarabağ məsələsilə bağlı olaraq bənzər çağırışla siyasi qüvvələrə müraciət edib. Lakin görünür, hesab edib ki, çıxışının perspektivi yoxdur və hakimiyyətdən gedib. "Daşnaksütyun" partiyası yeni statusda geri dönməsi haqqında mesaj vermək üçün hakimiyyəti daha ciddi olmağa çağırıb. Lakin ortaya cavabı vacib olan belə bir sual çıxır: hansı "Daşnaksütyun" partiyası hakimiyyəti ciddi olmağa çağırır, 20 il ərzində kriminal-oliqarxiya sisteminin siyasi məzarlarından biri olan partiyamı, yoxsa rebrendinqə (brendin dəyişdirilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutan aktiv marketinq) məruz qalan, keyfiyyətcə yeni müxalifət olmaq niyyətində olduğunu bəyan edən "Daşnaksütyun" partiyası? Partiyanın mitinqi ikinci prezident haqqında qətimkan tədbirinin dəyişdirilməsi və ardınca baş verən gurultulu hadisələrdən sonra elan etməsi nəzərə alınarsa, digər vacib intriqa Robert Köçəryanın bu mitinqlə əlaqəsinin olub-olmaması idi.

Aydındır ki, sözün birbaşa və ya məcazi mənasında Köçəryan mitinqdə iştirak etməyib. Başqa sözlə, "Daşnaksütyun" partiyası özünü köhnə və ya onlarla assosiasiya olunan qüvvə və xadimlərdən mümkün qədər kənarda göstərməyə çalışıb. Əlbəttə, bu özü-özlüyündə sübut deyil ki, "Daşnaksütyun" partiyasının mitinqi yalnız öz gündəliyinin təzahürüdür və köhnə sistemin bərpa edilməsinin ümumi kontekstinə uyğun deyil.



"Daşnaksütyun" partiyasının təmsilçiləri bir neçə dəfə təsdiq ediblər ki, keçmişə qayıdış olmayacaq və onlar ortaya həlledici müxalifət olma iddiası qoyur. Nəzəri olaraq verilən açıq bəyanatların partiyanın real davranışına uyğun olduğunu qəbul etsək, onda, ən azı, "Daşnaksütyun" partiyasının alternativ baxışı nədən ibarətdir, bu unudulmuş köhnədir, yoxsa yeni Ermənistanda inqilabın gündəliyilə bağlı mübahisə açmama qərarlılığı olan yeni müxalifət hərəkatıdır" sualı yerində olacaq. "Daşnaksütyun" partiyası öz çıxışlarında son 20 ildəki fəaliyyətinə qiymət versəydi, bu sual aktual olmazdı. Bu halda, insanların "Daşnaksütyun" partiyasını qeyri-səmimi hesab etmək haqqı var.

Digər tərəfdən, bizim "Daşnaksütyun" Partiyasının fəaliyyəti, siyasi motivasiyaları haqqında tam təsəvvür əldə etməyimiz üçün bir mitinqin keçirilməsi, hətta bir neçə bəyanatın verilməsi yetərli deyil. Mitinq tribunasından edilən çıxışlar, verilən qiymətləndirmələr kifayət qədər adekvat idi. Lakin cavabını gözləyən aktual suallar var: "Daşnaksütyun" Partiyası keçmişin kədərli xəyalətindən, Köçəryanın və əvvəlki sistemin bugünkü təqiblərindən azad ola və institusional müxalifət ola bilərmi? Hətta "Daşnaksütyun" partiyası Nikol Paşinyanın komandasına, cibində "qırmızı kart" olduğu halda "sarı kart" göstərsə də, bu gün bu suallara cavablar açıq qalır. Azadlıq meydanı bundan da alovlu və səs-küylü çıxışlar eşidib, lakin bu heç də real alternativin formalaşmasına gətirib çıxarmayıb.

"Daşnaksütyun" Partiyasının xadimləri mitinq tribunasından "Biz təkrar gələrək deyirik ki, yalnız bir fikrin olmasına imkan verməyəcəyik, çünki tək bir fikrin olması diktaturadır. Bu bizim ölkəmizdə istisna olunur" deyiblər. Bu, tamamilə adekvat və rasional mövqedir. Lakin inqilab komandası ilə bağlı tədricən məyus olan, şübhəsiz, alternativə ehtiyacı olan bizim cəmiyyətimiz "Daşnaksütyun" partiyasının mitinqdə verdiyi bəyanatlara inanmaq üçün əmin olmalıdır ki, partiya kriminal-oliqarxiya sisteminin acgözlüyü və özbaşınalığı ilə eyniləşdirilən keçmişlə körpüləri həqiqətən yandırıb. Amma reallıq bunun əksini göstərir və getdikcə bu qənaət hasil olur ki, "Daşnaksütyun" partiyasını Köçəryan hərəkətə gətirir. Bu hərəkətlilik isə Ermənistanda daxili qarşıdurmanı daha da dərinləşdirir və belə vəziyyət hətta silahlı qarşıdurmaya kimi irəli gedə bilər".

***Nahid SALAYEV***

## Rusiya Türkiyə ilə birgə S-500-lərin istehsalına başlayır - Şoyqudan ABŞ-ı özündən çıxaracaq açıqlama...

**Rusiyanın müdafiə naziri Sergey Şoyqu ABŞ və Türkiyə arasında gərginliyə səbəb olan raketdən müdafiə sistemlərilə bağlı yeni açıqlama verib.**

Baki-xeber.com xəbər verir ki, S-400 raketdən müdafiə sistemlərinin iyunda Türkiyədə olacağını deyən Şoyqu S-500-lərin Türkiyə ilə ortaq istehsalını istisna etməyib.

"İlk S-400 heyəti iyun ayında Türkiyədə olacaq. Türkiyə ilə S-500-ləri də birgə istehsal edəcəyik. Bir ədəd S-500 batareyası belə bütün Türkiyə hava sahəsini xarici hücumlardan qorumağa bəs edər" - Şoyqu deyib. "Türkiyə elan etdiyi milli iqtisadi bölgələrini Şərqi Aralıq dənizində Amerika təhdidlərinə qarşı qorumaq və müdafiə etmək qüdrətindədir…

Qaldı ki, Türkiyənin əlində özünün istehsal etdiyi müasir texnologiya ilə "Hisar" havadan müdafiə batareyaları var. Amerika bu məsələdə gecikdiyini indi başa düşür.

Amerika nə edirsə, etsin Türkiyə öz ölkəsinə raketdən müdafiə qalxanını quracaq. ABŞ-ın həmlələri Türkiyənin dostu olan bir ölkənin həmlələri deyil. Bunu artıq dünya da öyrəndi. Türkiyə artıq ABŞ-ın əmr verdiyi bir ölkə deyil. Tam müstəqil yeni bir gücdür, bunu Amerika da qəbul edəcək" - Şoyqu deyib.

# Ermənilər Trampın İlham Əliyevə təbrik məktubunu ərazi bütövlüyünə zidd məzmunlu sənədə çevirə bilmədi...

## *Fikrət Sadıqov: "Birləşmiş Ştatların Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək birmənalıdır"*

**Məlum olduğu kimi, ABŞ Prezidenti Donald Tramp 28 May - Respublika Günü münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda bir sıra önəmli məqamlara toxunulub. Qeyd olunub ki, iki dövlət arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur.**



*"Ona görə də erməni mətbuatının bununla bağlı spekulyasiyaları nəyəsə yaramayacaq"*

Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələrdə, Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Prezident İlham Əliyevin rolu, eyni zamanda, Azərbaycanda islahatların aparılması yüksək qiymətləndirilib.

Bütün bunlardan məyus olan erməni mətbuatı isə Trampın məktubunu başqa istiqamətdə yozmağa çalışır. Onlar iddia edirlər ki, guya Tramp Gürcüstan Prezidentinə göndərdiyi məktubunda ölkənin suverenliyi və ərazi bütövlüyünün qeyd-şərtsiz dəstəkləndiyini xüsusi vurğulayıb. Azərbaycana gəldikdə isə guya ölkəmizin ancaq Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyəti qeyd olunub, digər məsələlərə isə toxunulmayıb. Bildirilir ki, Trampın təbrik məktubunda Azərbaycanın rolu və yeri yalnız enerji layihələrindən ibarətdir.

Əvvəla ABŞ Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini dəfələrlə rəsmi səviyyədə bəyan edib. Bununla bağlı Birləşmiş Ştatların mövqeyi birmənalıdır. Tramp prezident olandan sonra da ABŞ-ın bu istiqamətdə mövqeyi əvvəlki kimi qalıb. Digər tərəfdən, Respublika Günü ilə bağlı təbrikdə ərazi bütövlüyünün qabardılmasına ehtiyac yoxdur. Çünki sözügedən məsələyə təbrik məktubunda yer vermək uyğun gəlmir. O baxımdan, erməni mətbuatının yanaşması və müqayisəsi uğursuzdur.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, erməni mətbuatının məlum yanaşması yalan və uğursuz müqayisə üzərində qurulub: "Onların bu yanaşması tamamilə yalan üzərində qurulub. Sadəcə, bununla bizə qarşı yeni kampaniya təşkil etmək istəyirlər. Sözügedən təbrik məktubunda Tramp bir çox məqamlara toxunub. O cümlədən, ABŞ-Azərbaycan partnyorluq münasibətləri yüksək qiymətləndirilib. Görünür, erməni mətbuatı bütün bunlardan çox narahatdır. Çünki Trampın son məktubu kifayət qədər Azərbaycanın maraqlarına cavab verir. Bu ona işarə edir ki, ABŞ Azərbaycanın həm Cənubi Qafqazda, həm də beynəlxalq münasibətlər sistemində rolunu və yerini çox yüksək qiymətləndirir. Ona görə ki, bütün vacib aktual məqamlar həmin məktubda öz əksini tapıb. Birləşmiş Ştatlar Azərbaycanın regiondakı strateji önəminin fərqindədir və bunu dəyərləndirir.

Bununla bağlı çoxsaylı arqument səsləndirmək olar. Ermənilər də bütün bunlardan narahatdırlar. Ona görə də hər vasitə ilə buna kölgə salmağa çalışırlar. Birləşmiş Ştatların Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək birmənalıdır.

Bundan ötrü hər dəfə ABŞ-ın xüsusi bəyanatla çıxış etməsinə ehtiyac yoxdur. Erməni mətbuatının bununla bağlı spekulyasiyaları nəyəsə yaramayacaq".

***Vidadi ORDAHALLI***

# Bir erməni üstündə erməniçilik oyunu "Arsenal"ın imicinə zərbə vurdu...

## *Amal Abuşov: "Arsenal" yerli publikanın dəstəyindən də tam məhrum oldu"*

**Bütün təxribatlara baxmayaraq, artıq Bakının evsahibliyi edəcəyi möhtəşəm final oyununa az vaxt qalıb. Arxaya baxanda isə biz şahidi oluruq ki, ermənilər öz məkrli siyasətlərini futbola da qata bildilər. Finalçıların birinin tərkibində forma geyinən erməni əsilli, Mxitaryan adlı futbolçunun göstərdiyi şouda isə siyasi niyyət və çalarlar üzə çıxmış oldu.**




*"Erməni oyunu "Arsenal"ın imicini ciddi zədələmiş oldu"*

Artıq Britaniyanın "The Daily Star" qəzeti də bu barədə yazıb. Nəşrin "Arsenal"ın erməni əsilli yarımmüdafiəçisi Henrix Mxitaryanla bağlı yaydığı məlumatda deyilir ki, "Arsenal" onunla bu yay vidalaşmaq fikrindədir. 30 yaşlı oyunçu ola bilər ki, bundan sonra sadəcə bir dəfə "Arsenal"ın heyətində yaşıl meydana çıxsın. Qəzet bildirir ki, H.Mxitaryan İngiltərə premyer liqasında daha əvvəlki oyun məharətini göstərmək gücündə deyil.

Bir vaxtlar Almaniyanın "Borussia Dortmund" klubunun ulduz oyunçusu olmuş erməni əsilli futbolçunu satın almaq üçün "Manchester United" 30 milyon avrodan keçmişdi.

Göründüyü kimi, Britaniya mətbuatı da birmənalı şəkildə yazır ki, H.Mxitaryan "Arsenal" üçün xüsusi önəm daşıyan oyunçu deyil. Əksinə, baş məşqçi onun oyunundan narazıdır və klub onunla mümkün qədər tez vidalaşmaq fikrindədir.

Araşdırmalar nəticəsində, həmçinin, məlum olub ki, H.Mxitaryan 3 dəfə Dağlıq Qarabağda olub. Xankəndidə Qarabağ savaşında həyatını itirmiş hərbçilərin ailə üzvləri ilə görüşüb və onlara müxtəlif hədiyyələr paylayıb. Ona "Dağlıq Qarabağ Respublikası" adından "baş nazirin" "medalı" təqdim olunub.

Bütün bu faktlar bir daha sübut edir ki, Mxitaryanın göstərdiyi şounun bütün detalları cəmiyyət üçün aydınlaşıb. Məlum olub ki, həmin şəxsin addımları təhlükəsizliklə deyil, birbaşa siyasətlə bağlı olub.

**Futbol şərhçisi Amal Abuşov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, artıq bu məsələ bütün Avropa mətbuatının diqqət mərkəzindədir:** "Deyilən mövzuda, demək olar ki, hər gün yazılar yazılır. Mənə elə gəlir ki, "Arsenal" bu mövzudan xal qazanmağı düşünürdü. Oyundan əvvəl yaratdığı şou ilə özünü əzilmiş, döyülmüş, haqları pozulmuş bir imic formalaşdırmağa çalışırdılar. Ancaq deyilən məsələ əks təsir yaratdı. Azərbaycan dövlət səviyyəsində erməni futbolçunun təhlükəsizliyinə təminat verdi. Eyni zamanda, bütün resursları ilə bu bəhanəni ifşa edə bildi. Hətta nazirimiz Azad Rəhimov bildirdi ki, bəlkə Mxitaryanın dalınca F-16 təyyərələrini göndərək. Söhbət sözsüz ki, Mxitaryan kartından getmirdi. Adam onsuz da son turlarda heç əsas heyətə belə düşə bilmirdi. Yəni hamı gördü ki, "Arsenal" onun oynamasını zəruri saysaydı, mütləq mənada, Bakıya gətirə bilərdi. Məsələnin ikinci tərəfi isə Mxitaryanın separatçılara dəstək verməsi ilə bağlıdır. Bu fakt da öz təsdiqini tapmış oldu. Göründü ki, bu, sıradan bir futbolçu deyil. Yəni işinin adı yalnız futbol olmayıb. Azərbaycan təbliğat vasitələrinin köməyi ilə sübut etdi ki, Mxitaryan siyasiləşmiş və separatizmə dəstək verən idmançıdır. Düşünürəm ki, bütün bu faktorlar "Arsenal"ın imicinə mənfi təsir etdi. Bütün bəhanələrin cavabı tutarlı arqumentlərlə verildi. Göründü ki, məsələ heç də onların dediyi səviyyədə deyil. "Arsenal", həmçinin, yerli publikanın dəstəyindən də tam məhrum oldu. Əminəm ki, bizim azarkeşlərin böyük əksəriyyəti məhz bu amilə görə "Çelsi"yə dəstək verəcək. "Arsenal"ın artıq Mxitaryanı transferə çıxaracağı ilə bağlı fikirlər səslənir. "Arsenal" bunu qeyri-məhsuldar oyunçunun transfer qiymətini qaldırmaq üçün edibsə belə, bu, ucuz şoudan başqa nəsə deyil. İstənilən halda, erməni oyunu "Arsenal"ın imicini ciddi zədələmiş oldu".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanla uydurma "DQR" üz-üzə - TŞ katibinin uğursuz Vaşinqton səfərindən sonra Rusiya TŞ rəhbəri ilə görüş xəbərinin də yalanı çıxdı...

**Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranan real vəziyyət konfliktin çözümü istiqamətində yaxın tezlikdə müəyyən mühüm yeniliklərin olacağını istisna etmir. Yeni vəziyyəti şərtləndirən əsas səbəblər isə Ermənistan daxilində yaşanan gərginlik və qarşıdurma, həmçinin bu ölkənin xarici siyasətinin iflic vəziyyətə düşməsidir.**

Hadisələrin inkişaf axarı çox aydın şəkildə bu qənaətə gəlməyə əsas verir ki, Ermənistan Qarabağ məsələsində getdikcə daha çıxılmaz duruma düşür. Belə vəziyyətdə işğalçı ölkəyə qarşı artan təzyiqlər də konfliktlə bağlı yeni bir durum formalaşdırır. İndilikdə baş verənlərlə bağlı diqqət çəkən başlıca məqam Ermənistan daxilində kəskinləşən qarşıdurma və regionda maraqlı qüvvələrin bu prosesə müdaxiləsinin artmasıdır. Ermənistanın "Milli Gündəm" partiyasının həmtəsisçisi Ara Hakobyan bildirir ki, belə vəziyyət ölkəni daha zəif hala gətirir: "Sabiq prezident Robert Köçəryanın tərəfdarları, onların sırasında yer alan Qarabağdakı rejimlə Ermənistan arasında uçurum dərinləşir. Hər iki tərəf bu və ya digər şəkildə yanlarına güc strukturlarını cəlb etməyə cəhd göstərib. Müxalifət Azadlıq meydanında bəyanat yayaraq qeyd edib ki, müdafiə nazirinin müavinləri prosesə cəlb edilib və birmənalı şəkildə müxalifəti dəstəkləyirlər". Müxalifət lideri iddia edib ki, ümumi dövlət sistemi, o cümlədən məhkəmə sistemi xəstə vəziyyətindədir: "Köklü dəyişikliklərin, islahatların aparılmasına zərurət var, Daxili qeyri-sabitlik Qarabağda müharibənin bərpası risqini artırır. Çünki bu qeyri-sabitlik bizi daha çətin vəziyyətə salır və Azərbaycan bundan istfifadə edəcək. Üstəgəl beynəlxalq vəziyyət də bizim lehimizə deyil". Ermənistan ilk kəşfiyyat diversiya dəstəsinin təsisçi komandiri Vova Vardanov da eyni mövqeyni bölüşrək qeyd edir ki, yaxır tezlikdə döyüş meydanında Ermənistanın Azərbaycanın nəzarətiən yeni torpaqlar qaytarmasına şahidlik etmək mümkündür. O, bunu baş nazir Nikol Paşinyanın da yaxşı bildiyini qeyd edir: "Dövlətin sükanında olmayan, lakin bu fəaliyyətlərə cavab verməyə məcbur olan Paşinyan bütün bunlardan zövq alır. Qarabağda mümkün itkilərin olacağına dair indidn bənzər bəyanatlar sadəcə təhlükəsizlik sahəsində passivliyə bəraət qazandırılması üçün atılan addımlardır. Xalq özünü və öz gələcəyini qorumaq üzrə öhdəliklərini yerinə yetirmir. Paşinyan bütün bunları başa düşür, həmçinin dərk edir ki, müəyyən hərbi uğursuzluqlar ola bilər. Xüsusilə XXI əsrin təhlükələrinə cavab vermək üçün 25 il ərzində ordunun inkişafı yönündə, demək olar ki, heç bir şey etmədiyimiz bir məqamda belə bəyanat verilir. İndi son 25 il ərzində dövlətin sükanında olmayan, lakin bu fəaliyyətlərə cavab verməyə məcbur olan Paşinyan bütün bunlardan, qeyd etdiyim kimi, zövq alır. O, indidən ciddi uğursuzluqlar olduğu halda xəyanətkar müharibə, əməliyyatlar, sabotaj deyə bilməsi üçün özünə yumşaq yastıq qoymağa çalışır".

Beləliklə, erməni tərəfinin səsləndirdiyi fikirlərdən bəlli olur ki, düşmən ölkə yaxın tezlikdə 2016-cı ilin aprel olaylarının yenidən təkrarlana biləcəyini yaxşı başa düşür. Həmin vaxt baş verən bu hadisələr Ermənistanda Serj Sarksiyan iqtidarının devrilməsində mühüm rol oynadı. İndi Paşinyan da analoji aqibətlə üzləşməmək üçün bəri başdan Azərbaycanın işğal latındakı ərazilərin daha bir hissəsini azad etməsinin mümkünlüyünü etiraf edir və bunu hansısa xəyanətlə əlaqləndirir. Rusiyanın "regnum" portalı isə bu xüsusda digər maraqlı məqama toxunaraq yazır ki, Azərbaycanın ərazilərini güc yolu ilə azad etməsinə heç kim mane olmayacaq. Çünki İrəvan həm Rusiyanı, həm də, ABŞ başda olmaqla, Qərbi özündən narazı salmağı bacarıb. Portal bu xüsusda Ermənistan daxilində gərginliyin artmasına da nəzər salaraq yazır:"Ermənistanın baş naziri Nikol Paşinyan inqilabın yeni mərhələsinin başlandığını bildirəndən və "Qarabağ qəbiləsini sui-qəsd hazırlamaq"da ittiham edəndən sonra ehtimal yaranıb ki, Paşinyan və komandasının üzvləri kəskin seytnota düşüblər. İstisna deyil ki, bəyan edilən siyasi kurs şübhə altına alınanda onlar iflas durumunda görünüblər. Özünüz mülahizə edin. Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan "birdən" məlumat verib ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevin İrəvana səfəri hazırlanır - "məsələ danışıqlar mərhələsindədir". Amma Qriqoryanın sözlərinə görə, Patruşevlə əvvəlcə iyunun 18-də Rusiyada görüş keçirmək niyyətindədir, ola bilsin, o bundan sonra İrəvana da uçar.

Qəribə anonsdur. Özəlliklə də Rusiya Təhlükəsizlik Şurasının saytında bu barədə heç bir məlumat yoxdur. Başqası var. Qriqoryan "Ermənistan inqilabının ikinci mərhələsi"nin lap başlanğıcında Rusiyaya deyil, amerikalıların yanına yollanıb. Nə üçün? Ermənistanın "Qraparak" qəzetinin məlumatına görə, Ermənistan XİN və ABŞ-ın Ermənistan səfirliyi ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Con Boltonla onun görüşünü hazırlayıb. Amma Bolton imtina edib, Qriqoryanı öz öfisinin təmsilçilərinin yanına göndərib.

Ermənistan Təhlükəsizlik Şurasının katibiniin özü jurnalistlərlə görüşdə sıradakını deyib: "Səfəri iki yerə bölmək olar: Ağ Evdə ABŞ prezidentinin özəl yardımçısı Fiona Hillə görüş - biz Ermənistan-Amerika münasibətlərinin inkişafını, bunun üçün əldə olan bütün imkanlardan daha effektli istifadəni müzakirə etmişik. Qarabağ məsələsi üzrə ATƏT Minsk Qrupunun üzv ölkəsi, sülhə yardım edən bir dövlət kimi ABŞ-ın mühüm rolu qeyd olunub". Və əlavə edib ki, Vaşinqtonda "Ermənistanda özəlliklə polis sistemində gerçəkləşdirilən islahatlara əl tutmağa hazırdırlar". İnandırıb ki, "ABŞ-a səfərinin nəticələri tezliklə görünəcək", açıq eyham vurub ki, Paşinyanın tapşırığı ilə orada özəl missiya yerinə yetirib. Qalanı mənasızdır. Qriqoryan "German Marshal Found"unun ekspertlərilə görüşüb, onlara Ermənistandakı "inqilab"dan, onun Ermənistan cəmiyyətinə açdığı "imkanlar"dan və hakimiyyətin məhkəmə sistemində keçirmək niyyətində olduğu, hazırlanan islahatlardan danışıb - amma yalnız Ermənistanın keçmiş prezidenti Robert Köçəryan həbsdən azad edildikdən sonra. Bax, xoş təsadüf ancaq bundadır. Bizdə olan məlumata görə, Karnegi Fondunun ABŞ Dövlət Departamentində böyük nüfuzu olan aparıcı elmi işçsi Pol Stronski bu görüşə dəvət olunmayıb. O, bu günlərdə açıq mətnlə bildirib ki, "ABŞ Ermənistanda hakimiyyət keçidindən sonra bu ölkəyə yardımı xeyli artırıb" və"Ermənistan 6 ay boyunca ABŞ-dan əlavə maliyyələşmə kimi 14 milyon dollar alıb".

Stronski bununla yanaşı qeyd edib ki, Paşinyan hökuməti siyasətin prioritetlərini müəyyən edən kimi, proqramı aydınlaşanda ABŞ daha çox verməyə hazır olacaq. Amma "Ermənistan istehkamçılarının Rusiyanınkılarla birgə Suriyada olduğu" amili Vaşinqtonu təmin etmir, axı "ABŞ-ın Ermənistanı minasızlaşdırmaqda çoxdankı dəstəyi" proqramı çərçivəsində "bu istehkamçılara məhz amerikalılar təlim keçiblər". Lakin Stronskinin ifadələrində başlıcası əmr kimi səslənən başqa sözlərdir: "Paşinyanın işi var, o bunu etməlidir". Baş nazir bunu da edir - bacardığı kimi.Ermənistan cəmiyyəti Qarabağ məsələsində əvvəllər vahid idi, indi onu parçalayırlar. Ermənistanın baş naziri "Dağlıq Qarabağın prezident seçkiləri" ərəfəsində Xankəndi ilə çıq qarşıdurmaya gedir.

İndi Vaşinqtonda bundan sonra nələr olacağını ehtimal edirlər. Amerikanın "Freedom House" hüquq müdafiəsi təşkilatının işçisi Neyt Şenkkanın yazdığı kimi, "Paşinyan ölkədə sürətli, ya da dayanıqlı dəyişikliklərə yetməyə gücü olmadığından onu hakimiyyətə gətirən populizmə yuvarlanıb, məhkəmə sisteminin toxunulmazlığına yolverilməz qəsd sərgiləyərək ölkənin təkcə məhkəmə hakimiyyəti ilə münaqişəyə girməyib". Birmingen universitetindən politoloq Gevorq Oskanyan isə diqqəti buna yönəldir ki, "Paşinyanın məhkəmələri çevrələmək çağırışına yalnız 1000-ə yaxın adam hay verib". Və Paşinyan Amerika və Rusiya yönündə korlanmış belə bir durumda Dağlıq Qarabağ "hökumətini" sui-qəsd və dövlətə xəyanətdə ittiham edərək ona hücum edir. Guya, onlar ərazinin bir bölümünü Azərbaycana verməyə və buna görə məsuliyyəti onun üzərinə qoymağa hazırlaşırlar.

Bütün bu al-əlvan siyasi mozaika daha bir çalarla tamamlanır. Erməni nəşrləri XİN-dəki qaynaqlarına istinadən xəbər verir ki, "Ruisyalı həmkarı Sergey Lavrovla ağır telefon söhbətindən sonra Zöhrab Mnatsakanyanın arterial təzyiqi kəskin yüksəlib" və "nazirliyə gələn həkimlər ona gərəkli yardım ediblər". Biz bu məlumata inanmağa meylliyik, Ermənistandakı durum çox qəlizdir. Ermənistanın "Sasna tsrer" partiyası Dağlıq Qarabağa "Bir Ermənistan, bir dövlət" çağırışıyla keçirilən avtoyürüş təşkil edib. Bununla yanaşı, Xankəndinin İrəvandan üz çevirə biləcəyindən danışmaq heç kimin ağlına gəlmir. Heç olmasa, artıq heç kimin üz tutacağı heç hara olmadığına görə. Hələlik isə bir sual qalır: "Sasna tsrer" Paşinyana yardım edəcəkmi, yaxud başqa nəyəsə hazırlaşmaq gərəkdir? Gözləyəcəyik, axı çox şey həmişəki kimi pərdəarxası baş verir". Qeyd edilənlərlə yanaşı, istisna edilmir ki, baş verənlər yaxın tezlikdə ya Qarabağda yeni savaşın başlanmasına və Ermənistan üçün itkilərin olmasına gətirib çıxaracaq, ya da İrəvan Bakı ilə danışıqlar masası arxasında dil tapmağa çalışacaq. İndilikdə Ermənistanın Qarabağ məsələsində qeyri-konstruktiv mövqe sərgiləməsi birinci ehtimalı artırır, yəni savaşın olması bu gedişlə qaçılmaz görünür.

Mümkün savaşda Ermənistanın yeni böyük məğlubiyyətə düçar olacağı isə erməni cəmiyyətinin özündə də şübhə doğurmur. Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, hazırda Ermənistanı bu savaşda qoruya biləcək hamisi də yoxdur. Məhz bu durumda Ermənistan daxilində artan gərginlik və yüksələn qarşıdurma da məsələnin mümkün hərbi həllini tezləşdirəcək faktorlar sırasında yer alır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Dünya enerji bazarında qiymət tərəddüdləri Azərbaycana təsir etmir...

**Dünya miqyasında yaşanan geosiyasi gərginliklər fonunda diqqət mərkəzində getdikcə daha çox yer alan məsələlərdən biri də enerji resurslarının qiyməti ilə bağlıdır. Hazırda mövcud gərginliklər və açıqlanan bir sıra məlumatlarla bağlı olaraq enerji resurslarının qiymətində ciddi dalğalanmalar müşahidə olunur.**

Elə bu da indi bir çox ölkələr üçün ciddi problem yaradır. Dünya birjalarında, xüsusən də neftin qiymətini artıq dəqiq proqnozlaşdırmaq mümkünsüz hala gəlib. Məhz bu səbəbdən "qara qızıl"ın qiymətində indi tez-tez dəyişikliklər qeydə alınır.

Hazırda bütün bunlara əsas səbəb qlobal ticari savaşlara dair narahatlıqlar, Yaxın Şərqdə artan siyasi gərginlik, Venesuelada davamlı pisləşən vəziyyət, Rusiya və Nigeriyada neft istehsalındakı azalmaların təchizat risqləri yaratması, eləcə də Birləşmiş Ştatlarının xam neft ehtiyatlarının artmasıdır. Bazar hazırda OPEC və tərəfdaşlarının iyunda keçirəcəyi iclasa və bu iclasda neft hasilatının azaldılmasına dair sazişin müddətinin ilin sonunadək uzadılıb-uzadılmayacağına fokuslanıb. Qeyd edək ki, "qara qızıl"ın qiyməti OPEC+ koalisiyasının istehsalı azaltması fonunda bu il 40 faizdən çox artmışdı. Lakin bu artan temp son bir neçə həftədə geriləməyə başlayıb. İran ətrafında artan gərginlik isə neftin qiymətində yenidən artıma rəvac verib. Ekspertlər bu şəraitdə vurğulayır ki, iqtisadiyyatı enerji resurslarından, xüsusən də neftdən asılı olan ölkələr artıq ciddi çətinliklər yaşayır. Amma vaxtında diversifikasiyaya gedən ölkələr, məsələn, Azərbaycan üçün enerji resurslarının qiymətindəki dəyişikliklər getdikcə az əhəmiyyət kəsb edir. Çünki qeyri-neft sektorunda islahatlar artıq öz müsbət nəticələrini verir və ölkənin əsas gəlirləri məhz bu sahə üzrə formalaşır.




Azərbaycanda iqtisadi artım tempinin qorunub saxlanmasında qeyri-neft sektoru artıq xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoru üzrə artımlar ümumi iqtisadi artımları getdikcə üstələyir. Qeyri-neft sektorundakı artımın yüksək olmasının, iqtisadiyyatın və iqtisadi tempin dayanıqlılıq göstərməsinin nəticəsidir ki, dünya enerji bazarında yaşananların Azərbaycana təsiri minimal həddə enir. O da məlumdur ki, növbəti dövrdə də qeyri-neft sektorunun inkişafı prioritet olacaq. Bu, makroiqtisadi göstəricilərdə neftin payının azalmasına və neftdən asılılığın aradan qaldırılması prosesinin sürətlənməsinə imkan verəcək. Bütövlükdə, qeyri-neft sektorunda aparılan islahatlar nəticə etibarı ilə enerji resurslarından asılılığı daha sürətlə azaldır. Bütün bunlar həm də o deməkdir ki, qarşıdakı dövrdə dünya enerji bazarlarında baş verənlərin Azərbaycana təsiri hər hansı ciddi əhəmiyyət daşımayacaq. Amma Bakı bu bazarda baş verənləri enerji ehtiyatlarının mühüm ixracatçılarından biri kimi xüsusi diqqət mərkəzində saxlayır. Hazırda dünyada baş verən geosiyasi və hərbi gərginliklər, bir çox neft ölkəsində və ya ətrafında baş verən narahatlıqlar neft qiymətlərində kəskin bahalaşmanı istisna etmir. Çünki Venesuela ətrafında baş verən məsələlər öz həllini tapmayıb və bu ölkədə neft hasilatı kəskin aşağı düşüb. ABŞ sanksiyalarına görə Venesuelada neft satışı minimuma enib. İrana qarşı sanksiyalar daha da sərtləşib. İran öz tarixində ən az neft ixrac etdiyi dövrə qədəm qoyub. Sanksiya ilə bağlı may ayından bəri İranın neft ixracatı 500 min barrelə düşüb. Halbuki, İranın 3,5 milyon barrel ixracat potensialı var. Liviya ətrafında çox gərgin proseslər gedir. Liviyada da gündəlik potensial hasilat 1,8-2 milyon barrel civarındadır, amma heç bunun yarısı reallaşmır. Çinlə ABŞ arasında baş verən ticarət müharibəsi dünya ticarətinin zəifləməsinə və dolayısı ilə istehsalın azalmasına səbəb olmaqdadır. Bu da enerji resurslarının qiymətini yüksəldəcək faktorlar sırasındadır.Yəni hazırda neft qiymətlərini qaldıra biləcək amillər əsasən siyasi və hərbi faktorlarla bağlıdır. Xüsusən də ABŞ və İranın bir-birinə qarşı artan güc nümayişi real savaşa çevrilərsə, bu halda neftin qiymətinin asanlıqla 100 dollarlıq həddə çatması proqnozlaşdırılır.

İndilikdə ABŞ bölgəyə əlavələr cəmləşdirməkdə davam edir. İran İslam İnqilabı Keşikçiləri Korpusunun yüksək çinli nümayəndəsi Mürtəza Qurbani isə buna lazımi cavab veriləcəyini bildirir. Onun sözlərinə görə, İran məxfi silahının yardımı ilə Fars körfəzində ABŞ-ın hərbi gəmilərini dənizin dibinə göndərə bilər: "Düşmən Fars körfəzində ən kiçik ağılsızlığa yol verərsə, biz iki məxfi silahımızın köməyilə ABŞ-ın bütün ekipajını təyyarədaşıyan gəmilərlə dənizin dibinə göndərəcəyik". Bunlar fonunda Rusiyanın "Svobodnaya pressa" internet nəşri yazır ki, Yaxın Şərq üçüncü dünya savaşına yaxındır: "Yaxın Şərqdə savaş başlanması təhlükəsi gerçəkdən də gerçəkdir. Amerika gəmilərinin İran ərazisinə niyə yaxınlaşdığı aydın deyil, amma əməliyyat-taktiki silahların zərbəsinin hədəfi ola bilər. Nəticə kimi, Pentaqon öz qüvvəsini Fars körfəzinə cəmləşdirib ki, İranın hərbi cavab hərəkətini törətsin. Fars körfəzində baş verənlər "fəlakətin məşqi"dir. Yaxın Şərq ABŞ-ın bu dəfə İrana qarşı hazırladığı böyük savaşın kölgəsindədir". Belə vəziyyət neft qiymətlərinin bahalaşmasına hazırda təsir göstərən əsas faktordur. Hesab edilir ki, hərbi-siyasi gərginliklər tam aradan qalxmasa, neft qiymətlərinin daha kəskin bahalaşması ehtimalı yüksəkdir. Digər tərəfdən, gələn ay OPEC+ dövlətlərinin iclasında qəbul ediləcək qərar da qiymətlərə əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarındadır.

Xatırladaq ki, OPEC+ Nazirlərin Birgə Monitorinq Komitəsinin son iclasında neft bazarı və makroiqtisadi inkişafın cari vəziyyətini təhlil edərək ticarət danışıqları, geosiyasi problemlər kimi ciddi qeyri-müəyyənliklərin mövcudluğu şəraitində iyun görüşünədək neft bazarının, xüsusilə də neft ehtiyatlarının monitorinqi və təhlilinin davam etdirilməsi məsləhət görülüb. İyunda keçiriləcək toplantıda hasilatın azaldılması ilə bağlı qərarın qəbul olunması qiymətləri xeyli yüksəldə bilər.

**Qeyd edək ki, Nazirlərin Birgə Monitorinq Komitəsinin 15-ci iclasının iyunda Vyanada keçirilməsinə qərar verilib.**

***Tahir TAĞIYEV***

**101 yaşın mübarək, azadlığın carçısı, müstəqilliyimizin ilk sorağı - Azərbaycan Xalq Cümhuriyyəti! Üçrəngli bayrağının işığından, əzəmətindən güc alıb XX əsrin 90-cı illərində sənin yarımçıq ömrünü bütövləşdirib müstəqil Azərbaycan dövləti qurduq. Bu gün sənin 101 yaşını böyük qürur, fəxr və sevgi hissləri ilə qeyd edirik. Səni qurub yaradan, yoxdan var edən, bayrağını bayraqlar içində mövcud edən şəxsiyyətlərin, o böyük insanların xatirəsini, ruhunu tükənməz ehtiramla, sevgi ilə anırıq.**

# İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Mərkəzində Cümhuriyyətin 101 illiyi münasibətilə təntənəli tədbir keçirildi

## *Nəzakət Məmmədova: ”Cümhuriyyət cəmi 23 ay yaşasa da, xalqımıza azadlığı, hürriyyəti, müstəqil yaşamağı bəxş edə bildi”*

Mayın 27-də İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Mərkəzində (18 saylı Bakı Peşə Liseyi) Azərbaycan Xalq Cümhuriyyətinin 101 illiyi münasibətilə təntənəli tədbir keçirildi. 28 May - Respublika Gününə həsr edilən tədbirdə liseyin rəhbərliyi, müəllim və tələbə heyəti, o cümlədən də Teleradio Yayım Şurasının üzvü, yazıçı-publisist, tədqiqatçı Bəxtiyar Qaraca, Respublika "Xatirə kitabı" Redaksiyasının baş redaktoru, tanınmış şairə Nəzakət Məmmədova, tanınmış jurnalist-yazıçı Zemfira Məhərrəmli, "Ulduz" jurnalının şöbə müdiri, tanınmış şairə Fərqanə Mehdiyeva, telejurnalist, rejissor Kəmalə Mirzəyeva da iştirak edirdilər.



28 May - Respublika Günü münasibətilə keçirilən tədbir Azərbaycanın dövlət himninin ifası ilə başladı. Hər tərəf üçrəngli bayrağımızın işığına bələnmişdi, bayrağımız necə möhtəşəmdir, necə əzəmətlidir!

Gənc nəslin vətənpərvərlik tərbiyəsinin formalaşmasında, dövlətçilik hisslərinin daha da inkişaf etdirilməsində böyük əhəmiyyətə malik olan tədbiri Mərkəzin direktoru Fatma Çandirova açaraq qonaqları və tədbir iştirakçılarını salamladı. F.Çandirova çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi qısa, lakin şərəfli yoldan danışdı, bu dövləti quran Məhəmməd Əmin Rəsulzadənin, Fətəli Xan Xoyskinin, Əlimərdan bəy Topçubaşovun və digər görkəmli dövlət xadimlərimizin verdiyi mücadilələrdən söhbət açdı. O bildirdi ki, müstəqil Azərbaycan dövlətinin təməli 1918-ci ildə Cümhuriyyətin yaradılması ilə qoyulub. Bu gün dövlətçilik ənənələrimizin layiqincə davam etdirildiyini vurğulayan F.Çandirovanın sözlərinə görə, hər bir Azərbaycan vətəndaşı dövlətçiliyimizin qədrini bilməli və onu göz bəbəyi kimi qorumalıdır.

Teleradio Yayım Şurasının üzvü, yazıçı-publisist, tədqiqatçı, "İstiqlal düşüncəli Cümhuriyyətə aparan yollar" kitabının müəlliflərindən biri (digər müəllif Akif Aşırlıdır) Bəxtiyar Qaraca çıxışında Azərbaycan istiqlalının qazanılmasında böyük mücadilələr verən, olmazın çətinliklərlə üzləşən Cümhuriyyət qurucularının fəaliyyətindən danışdı. O vurğuladı ki, cəmi 23 ay ömür sürən Xalq Cümhuriyyətinin qurulması böyük çətinliklər hesabına həyata keçirilib. "İstiqlala gələn yollar asan olmayıb, bu olduqca çətin bir yol olub" - deyə bildirən B.Qaraca vurğuladı ki, bu gün istiqlalımızın müəlliflərinin məzarları Azərbaycandan kənardadır. M.Ə.Rəsulzadənin, Ə.Topçubaşovun, F.X.Xoyskinin, N.Yusifbəylinin, C.Hacıbəylinin və digərlərinin Azərbaycanın istiqlalı üçün böyük mücadilələr verdiyini deyən B.Qaracanın sözlərinə görə, onlar Azərbaycanın müstəqilliyini çox çətin şəraitdə elan ediblər. "Biz o şəxsiyyətlərin bir çoxunun məzarlarının harada yerləşdiyini bilirdik. Təkcə Cümhuriyyətin ilk hərbi naziri Xosrov bəy Sultanovun məzarından xəbərsiz idik. O, 1943-cü ildə vəfat edib və Türkiyənin Feriköy qəbiristanlığında uyuyur" - deyə bildirən B.Qaraca qeyd etdi ki, biz öz torpaqlarımızın yağı düşməndən azad edilməsinə nail olmalıyıq.

Respublika "Xatirə kitabı" Redaksiyasının baş redaktoru, tanınmış şairə Nəzakət Məmmədova da çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin keçdiyi şərəfli yoldan danışdı. N.Məmmədova qeyd etdi ki, bu gün böyük qürur yerimiz olan Cümhuriyyət böyük çətinliklər hesabına qurulmuşdu və qısa yaşasa da xalqımıza azadlığı, hürriyyəti daddıra bildi. "Azərbaycan Xalq Cümhuriyyəti olduqca çətin və mürəkkəb bir şəraitdə qurulmuşdu. Cümhuriyyət cəmi 23 ay yaşasa da, xalqımıza azadlığı, hürriyyəti, müstəqil yaşamağı bəxş edə bildi. Rəhbərlik etdiyim Respublika "Xatirə kitabı" Redaksiyası Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində çox böyük işlər görür. Biz dövlətimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan insanlarımızı unutmuruq.

Bugünkü tədbirə bizim uşaqlarımız, gənclərimiz gəlib, hamının əlində müstəqilliyimizin əbədi dayağı üçrəngli bayrağımız dalğalanır. Bu bayraq bizə Cümhuriyyəti quran böyük şəxsiyyətlərimizin əmanətidir. Bayrağımız həmişə uca olsun!" - deyə N.Məmmədova bildirdi.

N.Məmmədova çıxışının sonunda "Gözlədilər" adlı şeirini oxudu.

Liseyin tarix müəllimi Kamran Qədirov çıxış edərək Xalq Cümhuriyyəti və onun qurucuları barədə danışdı.

Liseyin 171-ci qrup tələbəsi Elvin Məmmədov çox böyük şövq və sevgi ilə "İstiqlal bəyannaməsi"ni söylədi.

Liseyin digər tələbələri - Gülarə və Könül "İki dövlət, bir millət" mahnısını ifa etdilər.

M.Ə.Rəsulzadənin tarixdə böyük iz qoyan tarixi müraciəti də öz səsində qonaqlara təqdim edildi. Lentin yaddaşından qopan bu səs bizi bir daha qürurlandırdı və müstəqil dövlətimizi göz bəbəyimiz kimi qorumağa səslədi. Tədbirdə, həmçinin, "Səməni", "Odlar yurdu" "Yallı" rəqsləri, "Yaşa Azərbaycan", "Cümhuriyyət nəğməsi" ifa olundu. Liseyin tələbələri Respublika "Xatirə kitabı" Redaksiyasının baş redaktoru, tanınmış şairə N.Məmmədovanın şeirlərindən ibarət kompozisiya təqdim etdilər.

Bununla yanaşı, tədbirdə liseyin idmançı tələbələrinin nümunəvi çıxışları oldu. Onlara medal və hədiyyələr verildi.

Bayraqları bayraq yapan üstündəki qandır,
Torpaq uğrunda ölən varsa, vətəndir!

Bu torpağın uğrunda canından keçib onu vətənə çevirən ulu babalarımızın, bizə üçrəngli bayrağı miras qoyan, dövlət müstəqilliyimizin təməlini yaradan böyük şəxsiyyətləri unutmuruq.

*İradə SARIYEVA*

---

**Ötən saylarımızda son vaxtlar Bakıda keçirilən tədbirlərdə xüsusi uniformalı insanlara rast gəlinməsi ilə bağlı məlumat verməklə yanaşı, həm də həmin formanın hansı qurumlara aid olduğu istiqamətində araşdırma aparmışdıq.**

*”Mənim iradlarımın ”Bakı-Xəbər”ə heç bir aidiyyəti yoxdur”*

# Polkovnik-leytenant formasından niyə imtina etdi...

## *İsmayıl Zalov: ”Sizin yazınızdan sonra istefa vermək qərarına gəldim”*

Jurnalist araşdırması ilə bağlı tədbirlərdə həmin uniformada tez-tez görünən şəxslərin özləri ilə əlaqə saxladıq. Onların verdikləri açıqlamanı olduğu kimi yazdıq. Amma çox maraqlı proseslər bundan sonra başladı. Hiss etdik ki, toxunduğumuz mövzu kimlərisə bərk narahat edib. Bu narahatlığı yazının müəllifi kimi mənə edilən zənglərdə, göndərilən ismarıclarda aydın sezdim. Nəhayət, həftənin qeyri-iş günü olmasına baxmayaraq, birinci yazımızda adı keçən və qeyd etdiyimiz uniformanı geyinən İsmayıl Zalovun adından yayılan bəyanatla tanış olduq. Bir neçə aztirajlı saytda yayılan həmin bəyanatda olduqca sərt notlar vardı, hətta bu mövzuya toxunanlar qeyri-peşəkarlıqda, formanın məxsus olduğu qurumun uğurlarını həzm etməməkdə günahlandırılırdı. Sitat: "...Mənim fəaliyyətim təşkilatda tam hüquqi əsaslarladır. Qanuni şəkildə və əmrlə aldığım rütbəni, geyindiyim uniformanı bəzi qara qüvvələr həzm edə bilmir. Ona görə də bu cür insanlar öz çirkin əməllərini bəzi dırnaqarası saytlarda, qeyri-peşəkar jurnalistlərin vasitəsilə yaymağa çalışırlar. Hüquq və vəzifələrimizlə tanış olmaq istəyən hər bir kəs BMT-nin üzvü İnsan Haqları Komissarlığının Paris departamentinin Mərkəzi Asiya üzrə nümayəndəliyinin Bakıda yerləşən ofisinə baş çəkə və tanış ola bilər. Biz təşkilatımızın adından bir daha bəyan edirik ki, işimizə və büromuzun adına heç bir fakta söykənməyərək ləkə gətirən, qara yaxan şəxslərin qanun çərçivəsində cəzalandırılmasını təmin edəcəyik".



Yayılan məlumatın ilkin mənbəyi biz olduğumuz üçün, İsmayıl Zalovun adından təqdim olunan bəyantdakı bəzi məqamlara aydınlıq gətirmək istədik. Əvvəla maraqlıdır, niyə uniforma ilə bağlı aparılan araşdırma təşkilatı belə narahat edib? İkincisi, niyə bu istiqamətdə aparılan araşdırmaya təşkilatın Bakıdakı rəhbərliyi səviyyəsində deyil, məhz İsmayıl Zalov səviyyəsində aydınlıq gətirilir, özü də belə sərt tonda?

Bəyanatın müəllifi olan İsmayıl Zalov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onun bizim yazdığımız yazı ilə bağlı heç bir iddiası yoxdur: "Mən uzun müddətdir ki, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirəm. Hansı saytın, qəzetin nə səviyyədə olduğunu da gözəl bilirəm. Mənim sizin yazdığınız yazıya zərrə qədər də olsun iradım yoxdur. "Bakı-Xəbər" kimi qəzeti qeyri-peşəkarlıqda günahlandırmaq üçün gərək mediadan xəbərsiz olasan. Bilirəm ki, sözügedən qəzet çox az sayda olan gündəlik qəzetlərdəndir. Mənim bəyanatımın ünvanı sizin yazını kontekstdən çıxararaq cəmiyyətə fərqli başlıqlarla təqdim edib, ağızlarına gələni yazanlardır. Bəyanatımın "Polisə Dəstək" İctimai Birliyi adından yaradılan "Facebook" səhifəsində paylaşılmasında da qeyri-adi nəsə görmürəm. Çünki mən həmin təşkilatın xarici əlaqələr üzrə sədr müaviniyəm. Sizin yazınızdan sonra mən BMT İnsan Haqları Komissarlığının Paris departamentinin Mərkəzi Asiya üzrə nümayəndəliyində daşıdığım hüquq eksperti vəzifəsindən istefa vermək qərarına gəldim. Mən ora cəmi bir ay əvvəl dəvət almışdım. Hüquqşünas adamam, getdim, nizamnamələri ilə tanış oldum. Gördüm ki, qanuni fəaliyyət göstərirlər. Bundan sonra onların təklifini qəbul etdim. Sonra gördüm ki, uniformalarla bağlı bəzi fikirlər səslənir, yazılar gedir, ona görə də həmin təşkilatda təmsil olunmaq istəmədiyimi bildirdim. Mənə vəsiqə, order və forma vermişdilər, hamısını qaytardım. Səbəbini də belə izah etdim ki, mən söz-söhbət olan yerdə qalmağı xoşlamıram. Hesab edirəm ki, mənim fəaliyyətim təmsil olunduğum "Polisə Dəstək" İctimai Birliyində daha məqsədəuyğundur. Çünki adam iki işin öhdəsindən çətinliklə gəlir".

İsmayıl Zalov bildirdi ki, bəyanatın onun adından verilməsi heç də bütün nümayəndəliyin məsuliyyətinin onun üzərində olması anlamına gəlməməlidir: "Mən özümə aid olan məsələyə münasibət bildirdim. Buyursun, qurumun rəhbərliyi necə istəyir, elə də məsələyə münasibət bildirsin. Mən harda olmağıma baxmayaraq, dövlətçiliyə sadiq adamam. Hər zaman ulu öndər Heydər Əliyevin yolunun davamçısı olan cənab İlham Əliyevin siyasətini dəstəkləmişəm, bundan sonra da dəstəkləyəcəm. Bu yolda canımdan, qanımdan keçməyə hazıram. Bir daha deyirəm ki, mənim iradlarımın "Bakı-Xəbər"ə heç bir aidiyyəti yoxdur. Quruma təqdim etdiyim istefa ərizəsinə hələ ki, cavab verilməyib".

"Bizdə olan məlumata görə, qurumun mərkəzi ofisi olan Fransadan bura məktub göndərilib ki, forma və vəsiqələrin verilməsi dayandırılsın, bu doğrudurmu" sualına isə Zalov cavab vermək istəmədi: "Mən bu barədə nəsə deyə bilmərəm. Çünki səlahiyyətimə aid olmayan məsələdir".

*Məhəmmədəli QƏRİBLİ*

## "Şərqdə demokratiya olanda onların babaları dinc, azad fikirli insanları işgəncələrə məruz qoyurdular"

# İnkvizisiya dövrü xristian Avropanın dəhşətli işgəncə alətləri Bakıda - o dövrün papaları nələr törədib...

***Vaqif Abışov:*** *"İnkvizisiya kimi qanlı bir yol keçən avropalılar bu gün Azərbaycanı, digər Şərq ölkələrini demokratik olmağa, insan haqlarına hörmət etməyə çağırırlar"*

**Qərblilər tarixən şərqliləri "vəhşi, vandal" kimi təqdim ediblər. Təəssüf ki, bu mənfi yanaşma bu gün də davam etməkdədir. Bu gün bütün dünyaya insan haqları və demokratiyadan "dərs keçən" avropalıların orta əsrlər dövründə istifadə etdikləri işgəncə üsulları, onları həyata keçirmək üçün cəza avadanlıqları, qurğuları həqiqətən də tükürpədicidir.**

Demək olar ki, biz hamımız orta əsrlər inkvizisiyası haqqında eşitmişik, bu barədə tarix kitablarında oxumuşuq, bu dəhşətli illəri əks etdirən hadisələri filmlərdə izləmişik. İnkvizisiya dövründə Avropa insanı yol verdiyi xətalara görə, sözün həqiq mənasında, papaların fitvası ilə dözülməz işgəncələrə məruz qalıb. Onlar elə bir şəkildə qətlə yetiriliblər ki, bunu sözlə ifadə etmək çox çətindir.

O da məlumdur ki, orta əsrlərdən günümüzə qədər gəlib çatan bu işgəncə alətləri qravürlərdə, rəsm əsərlərində öz əksini tapıb. Bu incəsənət əsərlərində insanların hansı vəhşiliklərlə qətlə yetirildiyinin şahidi olurduq. Bu alətlər həqiqətən də dəhşət saçır. Onları vahiməsiz, qorxusuz seyr etmək mümkün deyil. Biz bu alətləri, avadanlıqları Şirvanşahlar Sarayı Kompleksində görə bildik. Bir neçə gün əvvəl Şirvanşahlar Saray Kompleksində açılışı olan "İnkvizisiya - orta əsr işgəncə alətləri" sərgisini biz də ziyarət etdik. İtaliyanın Milan şəhərində yaşayan kolleksiyaçı Pierre Luigi Kannovinin şəxsi kolleksiyasında yer alan bu alətlər Bakı sakinlərinin və şəhərimizin qonaqlarının çox maraq və qorxu ilə seyr etdiyi nümunələrdir. "İnkvizisiya - orta əsr işgəncə alətləri" sərgisi çərçivəsində 70-dək eksponat nümayiş olunur, onların 29-u iriçaplı, qalanları isə kiçikölçülü işgəncə alətləridir.

Əslində, bu sərginin Azərbaycanda təşkil edilməsinin özü diqqətçəkəndir. Bu mənada ki, bu gün Avropa Azərbaycanı insan haqlarını pozmaqda suçlayır və dövlətimizə qarşı həqiqətə uyğun olmayan kampaniya həyata keçirir, qara piar aparır.

Əvvəlcədən deyək ki, nəinki orta əsrlərdə, heç qədim dövrlərdə nə Azərbaycanda, nə də digər Şərq ölkələrində belə qəddarlıqlar mövcud olub. Bizim ölkədə insanlara bu cür alətlərlə işgəncələr verilməyib. Tarixçilərin verdiyi məlumata görə, Azərbaycanda orta əsrlərdə ən qəddar işgəncə üsulu cinayətkara 15 gün müddətində yalnız mal əti və ilıq su verilməsi idi, cəzaya məhkum olunmuş insan davamlı olaraq bu vasitələrdən istifadə etdikdən sonra vəfat edirmiş. Avropada isə həyata keçirilən çeşidli işgəncə üsulları isə tamamilə bundan fərqlidir.

İndiyə qədər ölkəmizdə bu səpkidə sərgi keçirilməyib. "İnkvizisiya - orta əsr işgəncə alətləri" sərgisi bu istiqamətdə ilk təşəbbüsdür. "İçərişəhər" DTMQİ-nin təşəbbüsü və təşkilatçılığı, İtaliya Respublikası, Rusiya Federasiyasının təşkilati dəstəyilə ərsəyə gələn bu sərgidə orta əsrlərin Avropa ölkələrində kilsə məhkəməsinin insanlara tətbiq etdiyi cəza prosedurunun alətləri və qurğuları nümayiş etdirilir. "İçərişəhər" kimi tarixi məkanda, həm də orta əsr sarayında belə bir ekspozisiyanın sərgilənməsi ziyarətçilərə eyni mövzunun Şərqdə və Qərbdə necə gerçəkləşdirilməsinə dair düşünmə və müqayisə etmə imkanı verir. Ekspozisiyada qurbanlara fiziki əzab vermək, onları etiraf etməyə məcbur etmək üçün nəzərdə tutulmuş 70-ə yaxın qurğu nümayiş etdirilir. Bu, 500 ilə yaxın mövcud olmuş orta əsr inkvizisiyası dövründə çox geniş yayılmış bir təcrübə olub.

Biz orada olarkən sərgiyə müxtəlif yaş qrupunda insanların gəldiyinin şahidi olduq. Hətta bir ana özünün iki azyaşlı övladını da sərgiyə gətirmişdi. Ona deyəndə ki, "uşaqlarınız bu alətləri görüb qorxa bilər", xanım "bu bir tarixdir, qoy onlar Avropanın əsl simasını görsünlər" cavabını verdi.

Əvvəlcədən qeyd edək ki, buradakı eksponatlar kifayət qədər dramatikdir və orta əsrlərin sərt həqiqətlərinin təfərrüatı ilə zəngindir. Ziyarətçilərə təqdim edilən ekspozisiyanın əsas məramı düşünməyə məcbur etməkdir. Axı buradakı hər bir eksponat tam mənası ilə yalnız vahimə və qəzəb deyil, həm də mərhəmət və şəfqət hissi doğurur.

2019-cu il avqust ayının 18-nə qədər davam edəcək sərgiyə Azərbaycan vətəndaşları 5, xarici vətəndaşlar isə 8 manat ödəməklə baxa bilirlər...

Biz orada olarkən maraqlandıq ki, sərgidə nümayiş olunan işgəncə alətlərini Azərbaycanda sərgiləməyin əsas mənası nədir? Sərgi nəzarətçiləri bildirdilər ki, Pierre Luigi Kannovin İtaliyanın ən məşhur kolleksiyaçılarından biridir və onun kolleksiyasında bir sıra qədim nümunələr toplanıb, o, vaxtaşırı olaraq kolleksiyasında olan eksponatların sərgisini təşkil edir. Onun böyük kolleksiyasında qədim kitabların da olduğu bildirilir. İnkvizisiya dövrü orta əsr işgəncə alətlərinə gəlincə, bildirdilər ki, bu alətlər onun kolleksiyasının ən populyar və maraq kəsb edən eksponatlarından biridir. Sərginin Bakıda təşkilinə gəlincə, əməkdaşlar qeyd etdilər ki, məqsəd dünyanın ən maraqlı şəhərlərindən olan Bakıda Avropada bir vaxtlar belə bir vəhşi üsulun tətbiq edildiyini alətlər vasitəsilə nümayiş etdirmək, əsl həqiqəti çatdırmaqdır.

**"İspan atı" - qanlı cinayətlərin şahidi...**



Şirvanşahlar Saray Kompleksinin bir neçə zalında sərgilənən işgəncə alətlərinə yaxınlaşıb toxunmağın özü insanda vahimə yaradır.

Zalın girəcəyinə yaxın yerdə qoyulan üçbucaqlı formalı uzun işgəncə qurğusu "İspan atı" adlanır.

Orta əsrlərdə "İspan atı" işgəncə üsulu cadugərlikdə və ya şeytanla əlaqədə şübhəli bilinən qadınlar üçün nəzərdə tutulurdu.

Qadınları taxta dirək üzərində elə otururdular ki, digər dayaq nöqtələri olmayan bədənin ağırlığı nəticəsində taxtanın iti ucu qadının vaginasına daxil olsun. Sonralar inkivizasiya dövründə "beşik" adı ilə tanınan "İspan atı" bəkarət andı vermiş, lakin zina etmiş rahibələrə qarşı da cəza vasitəsinə çevrilib. Cəza qadınlarla yanaşı, kişilərə də tətbiq edilirdi. İşgəncənin daha dözülməz edilməsi üçün qurbanın ayaqlarına daşlar və digər ağır yüklər bağlanırdı.

**Yuxusuzluqla işgəncə (Yəhudanın beşiyi)... Məcburi yuxusuz saxlama işgəncə aləti...**



Sərgidə nümayiş olunan ən dəhşət doğuran işgəncə alətlərindən biri "Yuxusuzluqla işgəncə" alətidir ki, bu alət də orta əsr Avropasının əsl simasını göstərir.

İxtiraçı İppolito Marsilinin sözlərinə görə, məcburi yuxusuzluğun tətbiqi işgəncə tarixində dönüş nöqtəsi sayılırdı. O dövrdə insanlara günahlarını etiraf etdirmək üçün bədən xəsarətlərinin yetirilməsi yolverilməz sayılırdı. Bu işgəncə növünün mahiyyəti qurbanın uzun müddət oyaq qalmasını təmin edərək, ona yuxusuzluqla əzab vermək idi. Əvvəllər qəddar işgəncə sayılmayan "yuxusuz saxlamaq", eksponatdan da göründüyü kimi, İnkvizisiya dövründə müxtəlif formalar alıb. Piramidanın şiş ucu anusa, xayalara və ya büzdümə, qadına işgəncə verildiyi təqdirdə isə vaginaya nüfuz etməli idi. Ağrılar o qədər dəhşətli olurdu ki, çox vaxt təqsirləndirilən şəxs huşunu itirirdi. Belə hallarda işgəncə qurbanı özünə gələnədək təxirə salınırdı. Almaniyada bu cür işgəncə "Yəhudanın beşiyi" adlandırılırdı (İsa Məsihi 30 gümüş sikkəyə satan həvarisi Yəhuda nəzərdə tutulur).

**"Doqquz quyruqlu pişiklər"in dəhşətləri...**

Sərgidə olarkən diqqətimizi cəlb edən eksponatlardan biri su ilə işgəncə səhnəsi oldu. 3 nömrəli eksponatda foto vasitəsilə bu üsul aydın şəkildə əks olunur.

Məlumat aldıq bu işgəncə üsulunu daha qəddar və təsirli etmək üçün təqsirkarı tara çəkir, yaxud ortası qaldırıla bilən xüsusi böyük masaya bağlayırdılar. Qurbanın ayaqları və əlləri masanın kənarına bağlandıqdan sonra cəllad bir neçə üsulla işə başlayırdı. Üsullardan biri bundan ibarət idi ki, qurbanın ağzına qıf vasitəsilə çoxlu su töküb onu udmağa məcbur edir, sonra isə şişmiş qarnına zərbələr endirilirdi.



Digər üsul isə qurbanın boğazına boru şəklində lülələnmiş əski tıxac soxur, sonra onu su ilə isladıb tədricən şişirdirdilər, nəticədə qurban boğulmağa başlayırdı. Bu az görsənəndə borunu çıxarırdılar, bu zaman daxili orqanlar zədələnirdi, sonradan tıxacı yenidən qurbanın boğazına yeridib əməliyyatı təkrarlayırdılar. Bəzən soyuq su ilə əzab verirdilər. Bu halda, təqsirləndirilən şəxs masa üzərində çılpaq vəziyyətdə buz kimi soyuq su şırnağı altında saatlarla uzadılırdı. Qeyd etmək lazımdır ki, bu əməliyyat yüngül əzab növü hesab olunurdu (?), bu yolla alınan etiraflara isə məhkəmə təzyiq altında alınmış deyil, "könüllü etiraf" kimi yanaşırdı...

**Qamçı ilə işgəncə...**




İnkvizisiya dövründə Avropada bu işgəncə üsulu çox geniş yayılmışdı. Bu qırmanc yüzlərlə növ qamçılama alətlərindən biridir. Keçmişdə populyar olan bu cəza üsulundan orta əsrlər dövründə əsasən dilənçilik, avaraçılıq, habelə ərazilərdə qəbul edilmiş davranış qaydalarını pozulması kimi cinayətlər üçün nəzərdə tutulurdu. Qamçılama üsulu ilə deyingən və vəfasız qadınlar cəzalandırılırdı. Qırmancların müxtəlifliyi də genişdir. Belə ki, hər tarixi dövrün öz "sevimli" modelləri vardı.

(Ardı 13-cü səh.)

*(Əvvəli 12-ci səh.)*

Bütün müxtəlif modellərdən biri zərərsiz görünüşlü, lakin ölümcül təhlükəyə malik "doqquz quyruqlu pişiklər" kimi tanınan qamçı növüdür ki, bundan saysız insan canını qurtara bilməyib. O belin və qarının qamçılanması üçün istifadə edilirdi. "Quyruqları" duz və kükürdün qarışığı ilə islatmaqla onun təsir effektini daha da dəhşətli edirdilər.

**Payayakeçirmə işgəncəsi...**



Burada dəhşət saçan səhnələri əks etdirən nümunələrdən biri payayakeçirmə işgəncə üsuludur.

Qəribədir ki, sərgidə nümayiş olunan eksponatlar sırasında "Payayakeçirmə" təsviri də yer alıb və bu təsvirin Yaxın Şərq ölkələrində, xüsusən də Osmanlıda geniş yayıldığı qeyd edilir. Məlumatda qeyd edilir ki, payayakeçirmə Assur-Babil mənşəli ən qəddar və vəhşi edam üsulllarından biri olub. Və Osmanlılar bu işgəncə vasitəsindən istifadə edib (?). Məlumata görə, bu işgəncə üsulu Osmanlıların tərsalara qarşı apardığı müharibələr dövründə qanunsuz silah daşımaqda ittiham edilənlərə qarşı həyata keçirilib. Məhkumları lüt soyundurub nazik, ucu iti payaya otuzdururdular. Payaya keçirilib qala divarı boyu qoyulurdu, bəzən onlar bir neçə gün əzab çəkdikdən sonra ölürdülər. Valaxiya döyüşündə çaldığı qələbədən sonra Qraf Drakula adı ilə tanınan Vlad Tepes minlərlə türkü qətlə yetirərkən payayakeçirmə cəzasını xüsusilə geniş tətbiq edib.

**İnkvizisiya dövründə bütün Avropada istifadə edilən cəza aləti - "Dartma taxtası"...**



Eksponatlar sırasında yer alan və çox ağır işgəncələrin həyata keçirilməsində istifadə edilən "Dartma taxtası" da böyük bir vəhşiliyin əyani sübutudur.

Bu üsul tarixi təsvirlərdə əks olunan ən geniş yailmış işgəncə vasitələrindən biri olub. "Dartma taxtası"ndan Avropanın bütün ərazilərində istifadə olunurdu.

Adətən bu alət ayaqları olan və ya olmayan böyük bir masa idi, məhkum isə əlləri-ayaqları bağlanmış vəziyyətdə uzadılırdı. Bu vəziyyətdə hərəkətsizləşdirilən qurban dözülməz ağrıları ilə əzələlərin parçalanmasına qədər "dartılır"dı. Zəncirlərin dartılması üçün fırlanan baraban dartma taxtaların bütün növlərindən deyil, yalnız "ən mükəmməl" və "təkmilləşdirilmiş modellər"dən istifadə olunurdu. Cəllad qurbanının parçalanmasını tezləşdirmək üçün onun əzələlərini kəsə bilərdi. Qurbanın bədəni parçalanmadan əvvəl 30 30 sm-dan çox dartılırdı. Bəzən qurbanı dartma taxtasına bağlayıb döş giləsini və digər həssas yerlərini maşa ilə sıxır, qaynar dəmirlə dağlayırdılar. Bu və digər işgəncə üsullarından geniş istifadə olunurdu.

**"Elzas çəkməsi"...**



Həmin dövrdə "Elzas çəkməsi" deyilən işgəncə üsulu da geniş yayılmışdı.

Məlumatlara görə, bəzi insanlar başqalarının həyatını çətinləşdirməkdən ləzzət aldıqları üçün, inkvizitorlar tərəfindən yeni işgəncə alətləri "ixtira" edən ustaların axtarılmasına səbəb olurdu. Çox sərt və ağılasığmaz işgəncələrə səbəb olan bu qandallar qədim qravyurlarda da əks olunurdu. "Elzas çəkməsi" bir məhbusun ayaqlarını zəncirləmək, yaxud digər məhbusa bağlamaq üçün üstifadə edilirdi.

**"Cadugərlərin kürsüsü"**



Bu adla tanınan inkvizisiya kürsüsünün iç tərəfi tamamilə iti mismarla örtülüb. Bu kürsü cadugərlikdə ittiham olunub, günahını boynuna almayaraq susan qadınlar üçün xüsusi cəza vasitəsi kimi inkvizitorlar tərəfindən yüksək "qiymətləndirilirdi". O dövrdə çox məşhur olan alət Avstriya inkvizisiyası tərəfindən geniş istifadə edilib. Bu kürsülər tikanlar, qandallar, təsbitedici bloklar və bəzən közərmə ilə qızdırıla biləcək dəmir oturacaqlarla təchiz olunurdu. Məhkumun tədricən öldürülməsu üçün bu alətdən istifadə edilməsinə dair dəlillər mövcuddur. Belə ki, 1693-cü ildə Avstriyanın Gutenberq şəhərində hakim Volf fon Lampertiş 57 yaşlı Mariya Vukinesin cadugərlikdə ittiham işini aparırdı. Qadın 11 sutka "cadugərlərin kürsüsündə oturdulub bağlanmışdı. Eyni vaxtda cəlladlar onun ayaqlarını "insletplaster" adlanan közərdilmiş dəmirlə yandırıb, onu əzablara düçar edird. Mariya Vukines çəkdiyi əzablardan ağlını itirsə belə, ittihamları qəbul etməyib.

Sərgidə nümayiş onunan və ilk baxışdan hökmdar taxtına bənzəyən "Taxt-tac" adlı eksponat da, əslində, inkvizisiya dövründə qəddarlıqların, işgəncələrin həyata keçirildiyi alət olub. Bu vasitə kürsü şəklində bir dirək kimi yaradılıb və acı şəkildə "Taxt-tac" adlandırılıb. Burada qurban başıaşağı vəziyyətdə yerləşdirilirdi, ayaqları isə taxta bloklar vasitəsilə bərkidilirdi. Bu işgəncə növü qanunlara ciddi riayət edən hakimlər arasında populyar olub. Əslində, işgəncələri tənzimləyən qanunvericilik üzrə işgəncə üsulundan istintaq zamanı yalnız bir dəfə istifadə edilməsinə icazə verilirdi. Hakimlərin əksəriyyəti bu qaydaları pozub, sadəcə olaraq növbəti sessiyanın davamı olaraq adlandırıblar. Taxtın istifadəsi 10 gün davam etsə belə, o bir sessiya kimi qəbul edilə bilərdi. Çünki onun istifadə edilməsi qurbanın bədənində getməyən izlər buraxmadan, uzunmüddətli istifadəsi üçün "çox rahat" işgəncə üsulu sayılırdı.

Qeyd edilənə görə, bu işgəncə ilə bərabər məhbuslar su və qızdırılmış dəmirlə işgəncələrə məruz qalıblar.

**"Dəmir ayaqqabı" işgəncəsi...**



Bildirdiyimiz kimi, ekspozisiyada həm iri, həm də kiçikölçülü işgəncə alətləri sərgilənir. Kiçikölçülü işgəncə alətləri xüsusi şüşə altında yerləşdirilib. Ölçüləri kiçik olsa da, insanlara verdiyi əzabın təsiri böyükdür. "Dəmir ayaqqabı" adı ilə tanınan işgəncə aləti kimi bu cihaz ilk dəfə Avstriyada XVII əsrin sonlarında hazırlanıb və görünüşü rahat bir ev ayaqqabısına bənzəyir. Cəza növünə uyğun olaraq, lazımi ölçülərə vintin köməyi ilə uyğunlaşdırılırdı. Günahkar şəxs camaatın bu ictimai cəzadan xəbərdar olması üçün həmin ayaqqabıda zınqırov səsləri altında gəzməyə məcbur qalırdı. Bu isə cəlladların işini azaldırdı, çünki "ayaqqabı" özü qurbana işgəncə verirdi. Bu ayaq ölçüsündən üç dəfə kiçik ayaqqabı geyinməyə bənzəyir və o dərəcədə insanların ayaqlarını incidirdi.

**"Asılma tar"...**



"Asılma tar" ən geniş yayılmış işgəncə vasitəsi idi. Əvvəllər "asan cəza" vasitəsi kimi məhkəmə proseslərində tez-tez istifadə edilirdi. Müttəhimin əlləri kəndirlə arxasında bağlanır, kəndirin digər ucu isə bu cür halqadan keçirilib dartılırdı. Qurbanı ya bu vəziyyətdə uzun müddət saxlayır, ya da kəndiri durmadan bərk dartırdılar. Bəzən cəzanı ağırlaşdırmaq məqsədilə qurbanın ayaqlarına əlavə yük bağlayır, bədənini isə, məsələn, "cadugər hörümçəyi" kimi maşalarla dartıb cırırdılar. Hakimlər düşünürdülər ki, cadugərlər əzablara sakitcə tab gətirmək üçün bir çox cadular bildiyindən, onları etiraf etməyə məcbur etmək hər dəfə mümkün olmur. Məlumatlarda qeyd edilir ki, XVII əsrin əvvəllərində Münhendə 11 nəfərlə bağlı bir sıra proseslərə istinad etməklə bu işgəncə üsulunun dəhşətlərini qeyd etmək olar. Onların 6-na uzun müddət dəmir çəkmələrlə əzab veriblər, bir qadının döşlərini parçalayıblar, növbəti 5 nəfəri tərləməklə, bir nəfəri isə payaya oturdaraq cəzalandırıblar. Onlar, öz növbəsində, əzablara tab gətirməyib, daha 21 nəfəri suçlayıb, onlar haqqında məlumatlar veriblər. Bu insanlar da Tetenvagedə dərhal istintaqa cəlb olunublar. Yeni müttəhimlər arasında çox hörmətli bir ailə də olub. Ailə başçısı həbsxanada ölür, ana 11 dəfə payada işgəncələr çəkdikdən sonra ittiham edildiyi bütün günahları etiraf etməyə məcbur olub. Ailənin 21 yaşlı qızı Agnes hətta əlavə çəkiylə belə payada iztirablara mətanətlə dözür və amma heç bir ittihamı qəbul etmir, yalnız cəlladları və ittihamçıları bağışladığını bildirir. Ancaq işgəncə kamerasında bir neçə gün davam edən məşəqqətli sınaqlardan sonra ona anasının "öz günahlarını tam etiraf etməsi" barədə məlumat verilir. Uğursuz özünə qəsdetmə cəhdindən sonra Agnes bütün "dəhşətli cinayətləri", o cümlədən 8 yaşdan "şeytanın sevgili"si olduğunu, 30 nəfərin üreyini yediyini, şabaşlarda ("ifritənin gecə məclislərində") iştirakını, qasırğalar "törətdiyi"ni və Rəbbi "inkar etdiyi"ni boynuna alır. Bundan sonra ana və qızı tonqalda yandırmağa məhkum edirlər.

**"Gilyotin" işgəncələri...**



Bu dəzgahı fransalı fizik Cozef-İqbasde Gilyotenin baş kəsmək üçün hazırlamışdı. Ona görə də bu dəzgah ixtiraçının adını daşıyır. Bu, başın bədəndən ayrılması üçün ən ağrılı və ən "insanpərvər" edam növü hesab edilirdi. Bunun üçün Gilyoten xüsusi dəqiqliklə işləyən dəzgah ixtira etməyi təklif edir. 300-cü illərdən etibarən zadəganların edamında müxtəlif ibtidai vasitələrdən istifadə edilib, amma onların iş prinsipi fərqli idi. Edam edilənin kürək nahiyəsinə bağlanmış taxta lövhəyə ağır çəkic zərbələri onların onurğasını sındırırdı.

"İnkvizisiya - orta əsr işgəncə alətləri" sərgisində, həmçinin, "Kəllə üçün press", "Dizçökdürmə", "İspan çəkməsi", "Döş parçalayan", "Odla damğalar", "İstintaq kürsüsü", "Dizdoğrayan" kimi işgəncə alətləri nümayiş olunurdu.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, bu, Avropanın qanla yazılmış tarixidir. "Roma papalarının və digər din xadimlərinin fitvası ilə həm qadınlara, həm də kişilərə qarşı çox ağır, dünyada analoqu olmayan cəza tədbirləri həyata keçirilirdi. İnkvizisiya dövründə kilsə məhkəməsi qurulmuşdu və burada azad fikirli insanlara qarşı olmazın işgəncələr verilirdi. Orta əsrlər Avropasında İnkvizisiya dövründə 100 minlərlə insanın həyatına işgəncələrlə son qoyulub. Hətta bu işgəncələr XVIII əsrin əvvəllərinə qədər bütün Avropada mövcud olub. 1542-ci ildə Avropada İsa Məsih adına bir təşkilat yaranmışdı və həmin təşkilatın həyata keçirdiyi işgəncələr dillə deyiləsi deyil. Onlar insanları elə qəddarlıqla qətlə yetirirdilər ki, onu təsəvvür etmək çətindir. İnkvizisiya dövründə hətta rahiblər, azad düşünən din xadimləri, hökmdarlar belə, canlarını o cəzalardan qurtara bilmirdilər. Orta əsrlərdə Avropanın bütün ölkələrində qəddarlıqların, insanlara qarşı işgəncələrin, qətliamların tüğyan etdiyi bir vaxtda Şərqdə çiçəklənmə, demokratiya, inkişaf yaşanırdı. Şərq mədəniyyətini inkişaf etdirirdi. Bu gün təəssüf ki, tarixi başdan-başa qanla yazılan, orta əsrlərdə demokratiyanın, insan haqlarının düşməni olan avropalıların bugünkü davamçıları Şərqə demokratiya "dərsi" keçirlər. İnkvizisiya kimi qanlı bir yol keçən avropalılar bu gün Azərbaycanı, digər Şərq ölkələrini demokratik olmağa, insan haqlarına hörmət etməyə çağırırlar. Şərqdə demokratiya olanda onların babaları dinc, azad fikirli insanları işgəncələrə məruz qoyurdular" - deyə V.Abışov qeyd etdi.

***İradə SARIYEVA***




# Asiya İnkişaf Bankının manatla istiqraz buraxmasının tək mənası - Azərbaycanda maliyyə sabitliyi dönməzdir...

## *Vüqar Bayramov: "Gələcəkdə bir sıra beynəlxalq təşkilatların Azərbaycan milli valyutasında istiqraz buraxmaq istəkləri ola bilər"*

*"Manatın məzənnəsindəki stabillik Asiya İnkişaf Bankının belə bir qərar qəbul etməsinə səbəb olub"*

**Məlumatlara görə, Asiya İnkişaf Bankı Azərbaycan manatında istiqraz buraxacaq. Asiya İnkişaf Bankı (ADB) ilk dəfə Azərbaycan manatında istiqraz buraxmaq planını potensial sərmayəçilərlə müzakirə edib.**

Bunu ADB-nin maliyyə və risqləri idarə etmək vise-prezidenti İnqrid van Vees media nümayəndələrinə açıqlamasında bildirib.

O deyib ki, hökumət üzvləri ilə, Maliyyə Bazarlarına Nəzarət Palatası, Bakı Fond Birjası, potensial sərmayəçilərlə yaxından əməkdaşlıq edirik.

Bankın vitse-prezidenti inkişafda olan ölkələrdə yerli valyutada istiqrazlar bazarının inkişafını iqtisadi artım üçün dönüş nöqtəsi kimi dəyərləndirərək, bunun borcalanların valyuta risqlərindən qoruna bildiyini dilə gətirib: "İndi İndoneziya rupiyahları, Qazaxıstan təngələri, Fillipin pesosu kimi yerli valyutalarda istiqrazlar buraxmış Asiya İnkişaf Bankı vaxtı gələndə Azərbaycan manatı nominasiyalı da istiqraz buraxacağına ümidvardır".

Maraqlıdır, Asiya İnkişaf Bankının Azərbaycan manatında istiqraz buraxması milli valyutanın möhkəmlənməsinə səbəb ola bilərmi?

İqtisadçı Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan Asiya İnkişaf Bankının üzvü olduğu üçün, milli valyutada istiqraz buraxmaq niyyətindədir: "Azərbaycan manatında istiqraz buraxılmasının səbəbi milli valyutanın məzənnəsinin sabit qalmasıdır. 2017-ci ilin fevral ayından etibarən milli valyutanın məzənnəsi stabil olaraq qalır. Manatın məzənnəsindəki stabillik Asiya İnkişaf Bankının belə bir qərar qəbul etməsinə səbəb olub. Bu baxımdan, manatın məzənnəsinin stabil qalması vacibdir. Gələcəkdə bir sıra beynəlxalq təşkilatların Azərbaycan manatında istiqraz buraxmaq istəkləri ola bilər. Beynəlxalq təşkilatların Azərbaycan milli valyutasında istiqraz buraxması dövlət qurumlarının, özəl təşkilatların istiqrazlara marağının artmasına səbəb ola bilər".

*Günel CƏLİLOVA*

**Azərbaycanın şərabçılıq sahəsində təcrübəsi və böyük potensialı mövcuddur. Qeyri-neft sektorunun inkişaf strategiyasına uyğun olaraq, ölkəmizin həm də bu sahədəki potensialının tam həcmdə realizəsi üçün tədbirlər həyata keçirilir.**



*"Hazırda Azərbaycanın şərab emalı ilə məşğul olan müəssisələrindən az hissəsi..."*

# Azərbaycanın şərab ixracı niyə bu qədər azalıb...

## *Qadir Bayramlı: "Şərabçılıq sahəsini inkişaf etdirmək üçün beynəlxalq sərgilərə qatılmalı, dünya təcrübəsi mənimsənilməlidir"*

1980-ci illərdə mərhum prezident Heydər Əliyevin rəhbərliyi altında üzümçülüyün inkişafı Azərbaycanı bu sahədə keçmiş ittifaq respublikaları arasında liderlər sırasına çıxarmışdı. O vaxtlar Azərbaycanın bütün rayonlarında salınmış üzüm bağları sovet hökumətinin yanlış "yenidənqurma" siyasəti nəticəsində, demək olar ki, məhv edildi, şərab emalı müəssisələri istifadəsiz qaldı. Azərbaycanın şərabçılıq sektorunun dirçəlməsi illər sonra yenidən mümkün oldu.

İki il öncə Prezidenti İlham Əliyevin sədrliyi ilə qeyri-neft ixracatçılarının respublika müşavirəsi zamanı müzakirə olunan aktual məsələlərdən biri də şərabçılığın inkişafı idi. Dövlət başçısı müşavirədəki çıxışı zamanı bu mövzuya toxunaraq bildirib: "Biz indi üzümçülüyü bərpa etməliyik və bərpa edirik. Yeni üzüm bağları salınmalıdır və bizim şərab zavodlarımız da tam gücü ilə işləməlidir. Mənə verilən məlumata görə, şərab zavodlarının istehsal potensialı ildə 100 milyon butulkadır. Ancaq biz bunun təqribən 20-30 faizini istifadə edirik. Ona görə üzüm istehsalı, o cümlədən, texniki üzümün istehsalı artmalıdır, şərab zavodlarımız tam gücü ilə işləməlidir və ixrac da kəskin şəkildə artmalıdır. Məndə olan məlumata görə, keçən il ixrac artıb. Ancaq əgər biz rəqəmlərə baxsaq görərik ki, konyak və şərab ixracı ölkəmizə cəmi 17,5 milyon dollar vəsait gətirib. Ona görə biz şərab və konyak məhsullarının istehsalını və ixracını ən azı 5 dəfə artıra bilərik, özü də qısa müddət ərzində. Biz buna da nail olmalıyıq. Üzümçülüyün, şərabçılığın inkişafı ilə bağlı əlavə təkliflər hazırlanacaq".

Bu illər ərzində Azərbaycanda şərabçılığın inkişafı ilə bağlı müəyyən işlər görülməyə başladı. Azərbaycan şərabı bir sıra xarici ölkələrə ixrac olundu və olunur.

Açıqlanan statistik rəqəmlərə əsasən, bu ilin yanvar-mart aylarında Azərbaycan 102,1 min dekalitr həcmində təbii üzüm şərabları və üzüm suslosu ixrac edib ki, bu da ötən ilin birinci rübü ilə müqayisədə 14,2% azdır. Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, hesabat dövründə ölkədən ixrac olunan məhsulların həcmində təbii üzüm şərablarının və üzüm suslosunun dəyəri 1,5 mln. ABŞ dolları təşkil edib ki, bu da 2018-ci ilin eyni dövrü ilə müqayisədə 0,8% azdır. Bundan başqa, keçən ilin birinci kvartalında Azərbaycan 1 479,1 ton tütün ixrac edib, bu da 35,8% artım deməkdir. İxrac edilən tütünün dəyəri 3,53 mln. ABŞ dolları təşkil edib (3,3% azalma).

Məlumat üçün bildirək ki, ən çox şərab istehsal edən ölkələr İtaliya, Fransa, İspaniya, ABŞ, Avstraliya, Argentina, Çin, CAR, Çili, Almaniya və Portuqaliyadır. Son dövrdə şərab istehsalında 1-2 faiz civarında azalma müşahidə edilir. Beynəlxalq tədqiqatların əksəriyyətində bunun səbəbi kimi dünyada baş verən kəskin iqlim dəyişiklikləri göstərilir.

Dünya üzrə şərab və şərabçılıq məhsullarının ixracı təqribən 1 milyard dekalitr təşkil edir. Ən çox məhsul ixrac edən ölkələr isə İspaniya, İtaliya, Fransa, Çili, Avstraliya, CAR, ABŞ, Almaniya, Portuqaliya, Argentina, Yeni Zelandiya və Moldova hesab olunur. Eyni zamanda, son onillikdə Almaniya, Böyük Britaniya, ABŞ, Fransa, Çin, Kanada, Rusiya, Niderland, Belçika, Yaponiya, İsveç və İsveçrə də yüksək idxal həcmləri ilə seçilir.

Azərbaycanda şərab istehsalının nə səbəbdən azaldığını öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Qadir Bayramlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dünyada şərab ixracatında böyük rəqiblər var: "Şərab sektoru ilə bağlı Azərbaycanın ən güclü rəqibi Gürcüstün, Rusiya və Türkiyədir. O ölkələr şərab istehsalında əsasən keyfiyyətə və çeşidə önəm verirlər. Azərbaycanda da şərabçılıqla bağlı keyfiyyətə və çeşidə diqqət yetirilir. Nəzərə almaq lazımdır ki, Sovet dönəmində Azərbaycan şərabçılıq sahəsi ilə bağlı inkişaf etmiş respublikalardan biri olduğu üçün, bizim bu sahə üzrə yetərincə təcrübəmiz var. Müəyyən səbəblərdən Azərbaycan şərabçılıqla bağlı əldə etdiyi uğurları itirdi. Bu sahənin dirçəlməsi üçün dövlət tərəfindən müəyyən işlər görülür. Üzümçülük sahələri salınır. Məhsuldar üzüm sortları xarici ölkədən gətirilərək ölkədə yetişdirilir".

Ekspert hesab edir ki, üzümçülüklə məşğul olan şəxslərə müəyyən güzəştlər tətbiq olunmalıdır. Güzəştli şərtlərlə kredit verilməli, büroktarik əngəllər aradan qaldırılmalıdır.

**Həmsöhbətimizin sözlərinə görə, hazırda Azərbaycanın şərab emalı ilə məşğul olan müəssisələrindən az hissəsi müasir texnologiyaya cavab verir. Eyni zamanda, şərabçılıq sahəsini inkişaf etdirmək üçün beynəlxalq sərgilərə qatılmalı, dünya təcrübəsi mənimsənilməlidir. Bununla yanaşı, şərabçılığın inkişafı ilə bağlı qiymət siyasətinə xüsusi diqqət yetirilməlidir.**

*Günel CƏLİLOVA*


Sabunçu (rayon) şəhər
Əhalinin Sosial Müdafiəsi Mərkəzi
VƏSİQƏ № 007317
Soyadı Hacıyeva
Adı Ayna
Atasının adı Cəlal qızı
Verilmə tarixi ... 2007 il

Şəhid ailəsinin yaşayış sahəsi ilə təmin edilməsi qüvvədə olan qanunvericiliyə müvafiq surətdə respublika hökumətinin müəyyənləşdirdiyi qaydada yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar.
Şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir. Şəhid ailəsi xüsusi mülkiyyət əsasında mənzil və ya fərdi ev alarkən notariat əməliyyatları dövlət rüsumu ödənilmədən aparılır.
İşçilərin sayı və ya ştatı ixtisar

# Şəhid zabit ailəsi Ayna Hacıyevanı Bakıxanovda yaşadığı mənzildən bayıra atmaq istəyənlər kimlərdir?

## *Səfər Soltanov Oleq adlı mərhum rusun birotaqlı evinə necə sahiblənmək istəyir...*

**Bakının Bakıxanov qəsəbəsində Yavər Əliyev küçəsi, ev24, mənzil 42-də yaşayan şəhid zabit ailəsi - Hacıyeva Ayna Cəlal qızı redaksiyamıza müraciət edərək, hüquqlarını müdafiə etməyə və onu hazırda yaşadığı evdən insaf və ədalət tanımadan bayıra atmaq istəyənlərdən qorumağa çağırır. Vətəndaş A. Hacıyevanı incidən kimlərdir və nə üçün bu işlə məşğul olurlar?**

Xanım A.Hacıyeva həyat yoldaşı Mehman Hacıyevlə illər əvvəl Rusiyanın Kaluqa şəhərində yaşadıqlarını, həyat yoldaşının hərbçi zabit olduğunu, Qarabağa erməni təcavüzü başlayanda 2 uşaqlarını götürüb Bakıya qayıtdıqlarını, ərinin 1993-cü ilin avqustunda Zəngilan uğrunda gedən döyüşlərdə həlak olduğunu yazır. Şəhid zabit xanımının yazdığına görə, hələ Kaluqada yaşayanda Bakıda onlara ərinin dostu, Oleq adlı bir rus tez-tez gəlib-gedərmiş. "Biz Bakıya qayıtdıqdan sonra da Oleqlə ailəvi dostluğumuz davam edirdi. Mehmanın Vətən uğrunda döyüşlərdə həlak olduğu o ağır günlərdə Oleq daim yanımızda olur, bizə arxa dururdu. 2012-ci ilin avqustunda Oleq özü də qəfil xəstələndi. İki dəfə ailə qurmuşdu. Hər nikahdan bir övladı var. Bir qız, bir oğlan atası idi. Ancaq ağır günlərində ona tək biz baxırdıq. Elə həmin dövrdə rəhmətə getdi və mən onun bütün dəfn işlərini öz üzərimə götürdüm, çünki ailə dostumuz idi...".

Ayna xanım yazır ki, Oleq rəhmətə gedəndən sonra öz yaşadıqları ev bərbad vəziyyətdə olduğu üçün yığışıb Oleqin evinə köçüblər: "Xeyli pul qoyub evi təmir etdim və birotaqlı ev nisbətən yaşamalı vəziyyətə salındı. Rahatlığımız uzun çəkmədi. Az sonra məlum oldu ki, Bakı şəhəri, 3 saylı xüsusi təyinatlı Mənzil-Kommunal Təsərrüfat Birliyinin rəisi işləmiş Yaşar Mahmudov adlı şəxs Oleq Lixoçevin Rusiyada yaşayan oğlu ilə razılaşaraq, Oleqin digər rəsmi nikahdan olan qızından xəbərsiz evi öz yaxın adamlarının adına sənədləşdirib. İndi mənə, heç bir yaşayış yerim olmadığı halda, evdən çıxarmaq üçün təzyiq göstərirlər, özünü evin sahibi kimi təqdim edən Səfər Soltanov adlı şəxs mənə təzyiq göstərmək üçün, əslində, hörmət etmiş rayon məmurlarının - başçının, prokurorun adını heç bir əsas olmadan hallandırır, cürbəcür saytlarda böhtan və şər yazdırırlar. Halbuki, bu məsələnin nə Sabunçu İcra Hakimiyyətinin başçısına, nə də rayon prokuroruna hər hansı aidiyyəti var".

Ayna xanımın yazdığına görə, Yaşar Mahmudov rəis olanda mövqeyindən sui-istifadə edərək belə qanunsuzluqlara yol verib. Ayna Hacıyeva yazır: "Məni evdən çıxarmaq istəyənlərə deyirəm ki, evin təmirinə 20 min pul xərclədiyim halda, saxta sənədlərlə evə sahiblənmək istəyənlərə niyə güzəştə getməliyəm?" A.Hacıyeva deyir ki, məsələdə başçının, ya prokurorun adını hallandırmaqdansa, məhkəməyə müraciət etsinlər və məhkəmədə hər şeyi aydınlaşdıraq.

Həqiqətən də maraqlıdır ki, evin sahibi olduğunu iddia edən Səfər Soltanov haqlıdırsa, niyə xanımı evdən çıxarmaq üçün məhkəməyə müraciət etmir və qanuni yolla məsələnin həllinə nail olmaq istəmir? Bu sualın dəqiq cavabını da Ayna xanım özü verir: "Məhkəməyə müraciət etməkdən qorxurlar. Çünki Oleqin qanuni nikahdan iki övladı qaldığı halda, onlar Oleqin tək oğlan övladı ilə sövdələşiblər. İndi qorxurlar ki, məhkəmədə müraciət etsələr, Oleqin qız övladı da ortaya çıxaraq onların etdiyi qanunsuzluğu ifşa edəcək və hər hansı sənəd əldə ediblərsə, məhkəmə o sənədi ləğv edəcək". Bax, burda bəzi şeylər aydınlaşır. Görünən odur ki, Oleqin hər iki övladının vərəsəlik hüququ nəzərə alınmadan evi öz adına sənədləşdirənlər nə həmin sənədləri üzə çıxara, nə də məhkəməyə müraciət edə bilirlər. Qanuni həll yolunda perspektiv görmədikləri üçün şantaj və təzyiq yolu seçir, rayon rəhbərlərinin adını əsassız şəkildə hallandırmaqla Ayna Hacıyevanı evi tərk etməyə məcbur etmək istəyirlər.

Burada məsələnin mənəvi tərəfi də var. Ayna Hacıyeva kimi şəhid ailələrinə dövlət, cənab Prezident bütün vasitələrlə himayə göstərdiyi halda, canını Vətənə fəda etmiş şəhid zabitin həyat yoldaşını köməksiz vəziyyətdə evdən bayıra atmaq heç bir vicdan normasına uyğun gəlmir. Elə buna görə də Ayna Hacıyeva qanunsuzluq və şantajla onu evdən çıxarmaq istəyənlər barədə ölkə Prezidenti cənab İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya müraciət etmək fikrində olduğunu yazır. Biz redaksiya olaraq, böyük ictimai və mənəvi əhəmiyyəti olan bu ev mübahisəsini, bir şəhid ailəsinin yaşadığı evdən çıxarılmasının hamının müzakirəsinə təqdim edirik. Bir zabit Vətən yolunda ona görəmi şəhid oldu ki, kimlərsə saxta sənəd və şantajla onun ailəsini yaşadığı evdən çıxarsın?!

Yazıda adları çəkilən digər şəxslərin də mövqeyini dərc edə bilərik. Mövzuya aid olan çoxsaylı sənədin fotolarını da yazıya əlavə edirik.

***Namiq QULİYEV***

**P.S. Növbəti saylarımızdan birində Ayna Hacıyevanın redaksiyaya müraciətində adları qeyd olunan şəxslərin də mövqeyini dərc etməyə çalışacağıq.**

# Enerji içkilərinin müəyyən uşaq yaşları üçün məhdudlaşdırılması gündəmdə...

**Böyüklərlə yanaşı, yeniyetmələrin ən çox sevdiyi içkilərdən biri enerji içkiləridir. Əvvəllər çox az adam enerji içkilərinin ziyanı haqqında məlumatlı idi. Ancaq indi hər kəs sosial media vasitəsilə enerji içkilərinin zərəri haqqında məlumat əldə edə bilər.**



***Qənirə Paşayeva:** "Enerji içkilərinin 18 yaşına çatmayan uşaqlara satışı tam qadağan edilməlidir"*

***Adil Qeybulla:** "Məktəbyaşlı uşaqların enerji içkilərindən istifadəsi qəti yolverilməzdir"*

Təəssüf hissilə qeyd edək ki, bu gün enerji içkilərinin açıq şəkildə, istənilən ərazidə satışı həyata keçirilir. Hətta məktəb yaxınlığındakı mağazalarda enerji içkiləri satılır. Yeniyetmələr sərbəst şəkildə enerji içkisi alıb içə bilərlər. Ancaq bir sıra ölkələrdə enerji içkisinin məktəblilərə satışı qadağan olunub. Ümumiyyətlə, adıçəkilən içkinin müəyyən yaşda olan insanlara satışına icazə verilir.

Məlumat üçün bildirək ki, 2004-cü ildə Avropa İttifaqında qəbul edilən tələblərə əsasən, 1 litrində 150 mq və daha artıq kofein olan enerji içkilərinin üzərində əlavə xəbərdarlıq yazısı yerləşdirilməlidir. 2014-cü ildən bu qayda daha da sərtləşdirilib və müəyyən edilib ki, 100 ml-də 1 mq və daha artıq kofein olan enerji içkilərinin üzərində "Yüksək kofein tərkiblidir. Uşaqlar, hamilə və uşaq əmizdirən qadınlara tövsiyə olunmur" yazılmalıdır. Ancaq məhdudiyyətlər bununla da bitmir. Yüksək həcmdə kofein istehlakından qaynaqlanan problemlər enerji içkilərinin müəyyən şərtlər daxilində Danimarka, Türkiyə, Norveç, Uruqvay, İslandiyada qadağan olunmasına səbəb olub. İsveçdə də enerji içkilərinin satışında məhdudiyyətlər tətbiq edilir və ümumiyyətlə, həmin məhsulların 15 yaşına çatmamış uşaqlara satışı tamamilə qadağan edilir. 2012-ci ildən Macarıstanda tərkibində yüksək kofein olan enerji içkilərinə "ictimai səhiyyə vergisi" ("public health tax") tətbiq olunur.

Ekspertlər bildirirlər ki, enerji içkisinin tərkibində olan kofein ürək ritminə təsir edir. Bu səbəbdən onlar təklif edirlər ki, marketlərdə enerji içkisinin satışı yaş məhdudiyyəti əsasında həyata keçirilsin. Bir sıra xarici ölkələrdə olduğu kimi, Azərbaycanda məktəblilərə enerji içkisinin satışı dayandırılsın.

Millət vəkili Qənirə Paşayeva bildirdi ki, 18 yaşına çatmayan uşaqlara enerji içkilərinin satışı qadağan edilməlidir: "Valideynlər uşaqlarının enerji içkilərindən istifadəsinə nəzarət etməyin çox çətin olduğunu deyirlər, çünki məktəblərin əksəriyyətinin çox yaxınlığında bu içkilərin sərbəst satışı həyata keçirilir. Buna görə də enerji içkilərinin 18 yaşına çatmayan uşaqlara satışı tam qadağan edilməlidir".

Millət vəkilinin sözlərinə görə, enerji içkiləri uşaqların sağlamlığına ciddi zərər vurur, asılılıq yaradır: "Enerji içkilərinin reklamı çox güclü aparıldığı üçün, bu içkilərə aludəçilik sürətlə artır. Bu səbəbdən də enerji içkilərinin 18 yaşına çatmayan uşaqlara satışının qadağan edilməsi istiqamətində addımlar atılmalı və bu qadağanı pozan şəxslər isə ciddi cəzalandırılmalıdır".

Tibbi ekspert, professor Adil Qeybulla bildirdi ki, enerji içkilərinin tərkibində müxtəlif maddələr, kofein var: "Enerjili içkilər bir müddət orqanizmi tonusa gətirmək gücünə qadirdir. Amma bu içkilər həm də ürək, sinir sisteminin fəaliyyətini fəallaşdırdıqda uzun müddət onlardan istifadə etmək məqsədəuyğun deyil. Təəssüflər olsun ki, belə içkiləri uşaqlara da "heç nə olan deyil" deyib verən valideynlər var. Məktəbyaşlı uşaqların enerji içkilərindən istifadəsi qəti yolverilməzdir. Bəzən məktəb yanında olan bufetlərdə, məktəbin özündə bu cür içkilərin satılması çox narahatlıq doğuran məsələdir. Çünki bu cür içkilərin mütəmadi qəbul olunması ürək əzələlərinin yorulmasına, kardiomeopatiyaya səbəb olur, hətta bu enerji içkilərinin təsiri altında ürək çatışmazlığından dünyasını dəyişənlər də var. Hesab edirəm ki, valideynlər bu məsələdə çox diqqətli olmalıdırlar. Yetkin insanlar belə, enerji içkilərindən istifadəyə çox aludə olmamalıdırlar".

Həmsöhbətimiz onu da vurğuladı ki, enerji içkiləri yuxu, əsəb pozğunluğu ilə yanaşı, qan-damar sistemində də problemlərə gətirib çıxarır: "Bu səbəbdən Norveç, Fransa kimi ölkələrdə bu cür içkilərin satışı qadağan edilib. Digər ölkələrdə isə enerji içkiləri yalnız 18 yaşdan yuxarı olan şəxslərə satılır. Bu baxımdan müvafiq qanunvericilikdə dəyişiklik edilməlidir ki, uşaqların bu içkilərə əlçatanlığı aşağı düşsün".

Onun fikrincə, enerji içkilərinin üzərinə "18+" yazılmalıdır: "Uşaqlara bu cür içkilər satılmamalıdır. Bununla yanaşı, enerji içkilərinin reklamına da qadağa qoyulmalıdır. Məktəblərin yaxınlığında bu içkilərin satışına imkan verməli olmaz".

***Günel CƏLİLOVA***

№ 94 (3992) ■ Qiyməti: 50 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

28 MAY 2019-cu il

# "Azercell" növbəti dəfə karyera sərgisində iştirak etdi

**Fəaliyyəti boyunca tələbələrin peşəkar və fərdi fəaliyyətinə dəstək olan "Azercell" növbəti dəfə karyera sərgisində iştirak edib.**

Belə ki, may ayının 25-i Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təşkil edilmiş VI məzun-karyera sərgisində "Azercell" şirkətinin İnsan Qaynaqları Departamentinin mütəxəssisləri tələbələrlə görüşüb,onların suallarını cavablayıb, şirkətdə mövcud olan vakansiyalar, xüsusi olaraq tələbələr üçün keçirilən təcrübə və təqaüd proqramları barədə geniş məlumat təqdim ediblər.

Qeyd edək ki, bu il "Azercell" şirkəti istedadlı gənclərin karyera qurmasına dəstək olmaq məqsədilə tələbələr üçün "Azercell-Lab" - ödənişli təcrübə proqramını elan edib. Təcrübə proqramı çərçivəsində tələbələrə 2 fərqli istiqamətdə seçim etmək imkanı təklif edilib: "İT-lab" və "Biznes-lab". Seçim mərhələlərini uğurla keçmiş tələbələr iyul ayının 1-dən başlayaraq "İT-lab" və "Biznes-lab" inkubasiya mərkəzlərində 6 aylıq ödənişli təcrübə keçmək fürsətini əldə edəcəklər. Əlavə olaraq, təcrübəçilər "Azercell" tərəfindən həyata keçirilən sosial layihələrdə, müxtəlif təlimlərdə və şirkətin korporativ tədbirlərində iştirak etmək imkanına da malik olacaqlar.

Azərbaycanda təhsilin inkişafına daim töhfə verən və ölkəmizin nüfuzlu universitetləri ilə əməkdaşlıq edən "Azercell" şirkəti bu istiqamətdə də fəaliyyətini gələcəkdə də davam etdirəcək.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Mustafayeva Lamiyə Coşqun qızına Qərbi Kaspi Universitetinin Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Cabbarov Nurlan Eldar oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədov Cahid Sabit oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Ənnağıyev Cavanşir Asəf oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Məmmədov Emil Rəfael oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Mahmudova Sevinc Cavanşir qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Cəlilov Yusif Vaqif oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Zeynallı Vəli Rizvan oğluna Azərbaycan İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Musayeva Əfsanə Rəşid qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qocazadə İsmət Fikrət oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hacıyeva Dilbər Telman qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

"Bue Caspian" şirkəti tərəfindən verilmiş Səmədov Kənan Elşad oğlunun N29143 sertifikatı itdiyi üçün etibarsız sayılır.

Əsmədov Rəhim Adış oğlunun adına, Daxili İşlər Nazirliyi tərəfindən verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır. (AZE N04543786, Abşeron RPŞ)

Kazımlı Elxan Umud oğluna Azərbaycan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır. (AZE N16823535, İmişli RPŞ)

Abışova Fidan Məhəmməd qızına Odlar Yurdu Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qəhrəmanov Məmməd Oruc oğlunun adına, JN-693 "F" kod 30401004 torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır (Şabran rayonu, Nəbi Məstanov küçəsi №14).

Həşimov Nemət Habil oğlu və Həşimova Tünzalə Fikrət qızının adına, Ağdaş rayonunda rəsmiləşdirilmiş torpaq sahələrinin sənədləri itirildiyi üçün etibarsız sayılır.

## "Nar" şəbəkəsi Avropa Liqasının final oyununa hazırdır

**Mayın 29-da "Arsenal" - "Çelsi" arasında baş tutacaq final oyunu ilə əlaqədar "Nar" yerli və əcnəbi azarkeşlərin mobil şəbəkə üzərindən rabitə xidmətlərinə olan tələbatını qarşılamağa tam hazırdır.**

Bununla əlaqədar olaraq oyunun keçiriləcəyi Bakı Olimpiya Stadionu və azarkeşlər üçün müxtəlif növ tədbirlərin təşkil olunacağı ərazilərdə mobil rabitə şəbəkəsində təkmilləşdirmə işləri artıq yekunlaşıb.

"Nar" Bakı Olimpiya Stadionu və ətraf ərazilər, "FAN" zona və "FAN Festival" ərazilərində mobil şəbəkə tutumunu optimallaşdırıb. Xüsusilə stadion ərazisində izləyicilər 286 Mbps sürətə malik 4G (LTE-A) texnologiyasının üstünlüklərindən faydalana biləcəklər. Paytaxtımıza gələcək qonaqların və yerli azarkeşlərin mobil şəbəkəyə olan ehtiyaclarını nəzərə alaraq, fanatlar üçün təyin olunmuş ərazilərdə 2 mobil baza stansiyası təyin olunub. Qeyd edək ki, respublika ərazisində mobil şəbəkənin 24/7 təhlili "Nar" "Əməliyyat Mərkəzi" və "Çağrı Mərkəzi" əməkdaşları tərəfindən daim nəzarətdə saxlanır.

UEFA Avropa Liqasının final oyunu ilə əlaqədar xaricdən gələn azarkeşlərin nömrəyə olan tələbatını ödəmək məqsədilə mobil operatorun satış komandası da gücləndirilmiş iş rejiminə keçib. "Nar"ın bütün satış mərkəzlərində, eyni zamanda, H.Əliyev adına Beynəlxalq Hava Limanındakı səyyar satış məntəqəsində də "Nar" nömrə almaq mümkün olacaq. Ölkəmizə gələn xarici turistlər "Nar"ın sərfəli "Xoş gəlmisiniz" tarifindən istifadə edə bilərlər.

"Nar" şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Bu gün az qala hər addımda sürpriz, qəfil hadisə və ya gözlənilməz söz ilə qarşılaşa bilərsiniz. Durumun təhlükəsizliyi kiminlə işləməyinizdən və münasibətlərinizin hansı səviyyədə tənzimlənməsindən asılıdır.



**Buğa** - İnformasiya ilə iş, kollektiv müzakirələr, problemin araşdırılması, çətin durumlardan çıxış yolunun aranması üçün əlverişli vaxtdır. Yaxın ətrafınızdakı insanların süst davranışı, sizin üçün mühüm məsələyə marağın azalması qıcıq yarada bilər.



**Əkizlər** - Ehtiyatsızlıq, tələskənlik və ya sadəlövhlüyün qurbanı olmayın. Sizi indi narahat edən məqamın daha dərin, alt qatlardakı mənası ola bilər. Başqa bir şəxsin sizi inandırmağa çalışdığı məqam, ya da elə o şəxsin özü göründüyü kimi deyil.



**Xərçəng** - Energetik baxımdan zəngin, amma çox qeyri-stabil bir günür. Gözlənilməz, mənasız səbəblərdən çəkişmə, toqquşma və münaqişə ola bilər. Şəxsi münasibətlərinizi gərəksiz aşkarlıq və təzyiqlərdən qoruyun.



**Şir** - Kollektivdə mühit gərginləşə bilər. Münasibətlərin aydınlaşdırılmasına çalışmayın. Xüsusilə də qadınlarla dartışmayın. Fiziki işlə məşğul olmaq, əşya daşımaq, məşq etmək, piyada gəzmək çox xeyirdir.



**Qız** - Gün ərzində elə bir hadisə baş verəcək ki, hisslərinizə ciddi təsir edəcək. İmpulsiv addımlar atmayın, sərt bəyanatlar verməyin. Yaxınlarınız, xüsusilə də uşaqlar xüsusi diqqət tələb edəcək.



**Tərəzi** - Həmkarlar və tərəfdaşlarla dil tapmaq heç asan olmayacaq. Niyə məhz belə etməyin gərəkdiyi barədə 100 arqument belə gətirsəniz, auditoriyanız sizi dinləməyəcək? Stabil olmayan, münaqişəli bir gündür.



**Əqrəb** - Emosiyaların tarıma çəkilməsi, hiss və həyəcanın ən yüksək səviyyədə olması sizi sınağa çəkəcək. Qüvvə və təşəbbüs tələb edən iş tapsanız, yaxşı olar. Mövqeyinizi müdafiə edin, qətiyyətinizi göstərin.



**Oxatan** - Səhər saatlarından etibarən yalan ümid və vədlərə aldanmayın. Səhər işə gedəndə evdəki elektrik əşyaların söndürüldüyünü yoxlayın. Günün ikinci yarısı gözlənilməz görüş, qəfil informasiya və ya həyəcan vəd edir.



**Oğlaq** - Yeni dayaq nöqtəsi, münasibətlər forması, status axtarışındasınızsa, diqqətli olun. Xüsusi məzmun və önəm kəsb edən məqam təsiri bağlaşayan nəsnə əslində belə olmaya bilər. Hətta, həmin nəsnə tələ, məkrli plan da olar.



**Dolça** - Gərgin, əsəbi, aqressiv, yovuşmazlıq hisslərinin aktivləşəcəyi gündür. Qəza, travma, sınıq, yanğın ehtimalı artır. Dözülməzlik fonunda münaqişə və mübahisələr yaranacaq.



**Balıqlar** - Mühüm situasiyalara nəzarət etməyə imkan verən hərəkətlər edin, işlər görün. Bu, cari iş yox, tərəfdaşlara əlaqələrin bərpası, danışıqlar, telefon zəngləri və ya perspektivlərinizə müəyyənlik gətirəcək məktublar ola bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Nar" "Youth Speak" Forumunda iştirak edib

**Gənclərin inkişafına hər zaman xüsusi diqqət ayıran "Nar" mayn 26-da Bakı Ali Neft Məktəbində keçirilmiş "Youth Speak" beynəlxalq forumunda iştirak edib.**

Dünyanın 100-dən çox ölkəsində, eləcə də Bakıda keçirilən forum Birləşmiş Millətlər Təşkilatı tərəfindən yaradılan Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) təşviqi məqsədilə təşkil olunub və daha çox insanın, xüsusilə də gənclərin bu məqsədlər haqqında məlumatlılığını artırmağı hədəfləyir. Dayanıqlı inkişaf dedikdə, gələcək nəsillərin öz ehtiyaclarını qarşılamaq imkanına xələl gətirmədən, bugünkü ehtiyacların qarşılanmasına imkan verən inkişaf nəzərdə tutulur. Qeyd edək ki, forum "AIESEC Azerbaijan" və Gənclər Fondunun dəstəyilə Birləşmiş Millətlər Təşkilatının davamlı inkişaf məqsədlərinə töhfə vermək məqsədilə keçirilib. Forumda rəsmi spiker qismində iştirak edən "Nar"ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov "Layiqli Əmək və İqtisadi Artım" mövzusunda çıxış edərək gənclərlə uğurlu karyera qurmağın yollarını müzakirə edib və davamlı şəxsi inkişafın bu istiqamətdəki əhəmiyyətini vurğulayıb. "Youth Speak" forumunda, həmçinin, "Gender Bərabərliyi" və "İnnovasiyalar" mövzusunda da müxtəlif peşələri təmsil edən mütəxəssislər tərəfindən təqdimatlar edilib. Qeyd edək ki, gənclərə, təhsilə dəstək vermək "Nar"ın Korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir.

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.